**EVDƏ QAL, SAĞLAM QAL!**

**Vətəndaş məktubları: "Cənab Prezident, inanırıq ki, Sizin müdrik qərarlarınız sayəsində hər çətinlikdən alnıaçıq, üzüağ çıxacağıq"**



Bax 8

**Özbəkistan portalında "Faşizm üzərində qələbə: Azərbaycanın real töhfəsi" adlı məqalə verilib**



Bax 6



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 105 (6070) 25 iyun 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Adil Əliyev: "Azərbaycan Ordusu Qafqazın ən güclü ordusudur"



Ordu hər bir dövlətin və xalqın təhlükəsizliyinin qarantıdır. Ümummilli lider Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan korpusunun yarandığı gün - 26 iyun Silahlı Qüvvələr Günü elan olunub. Hər bir dövlətin müqəddəratı ordusundan asılıdır. Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan ordusu işğalçı Ermənistanın dərsini...

Bax 7

## İlham Əliyev: "Heç bir sosial layihə ixtisar edilməyib"



*"Koronavirusla əlaqədar ilkin mərhələdə qabaqlayıcı tədbirlərimiz bizi böyük fəlakətdən qorudu"*

Bax 2

## Putin açıqladı: Nasizmə sovet xalqı qalib gəlib

Bax 7



"Nasizmə sovet xalqı qalib gəlib. Onlar Sovet İttifaqının bütün respublikalarından olan ən müxtəlif millətlərə məxsus insanlar idi." Bu sözləri Rusiya Prezidenti Vladimir Putin Böyük Vətən müharibəsində Qələbənin 75 illik yubileyi münasibətilə iyunun 24-də Moskvada keçirilən...

## Naira Zohrabyan: "Armen Sarkisyan özünü məhvetmə düyməsinə basdı"

"Bütün prezidentliyi dövründə Armen Sarkisyanın Ermənistan və ermeni xalqı ilə bağlılığı yalnız pasportunda milliyyətinin göstərilməsi ilə yekunlaşır". SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumatlara...



Bax 6

## Mixail Qusman Bakıya "Əmək rəşadəti şəhəri" adı verilməsini təklif edib

TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman Bakıya "Əmək rəşadəti şəhəri" adı verilməsini təklif edib. AZƏRTAC xəbər verir ki, bu təkliflə o, Rusiya Tarix Cəmiyyətinin iclasında çıxış edib. M.Qusman xatırladıb ki, Bakı faşizm üzərində qələbəyə böyük töhfələr verib...



Bax 7

## Cengiz Öndər "Mançester Yunayted"ə keçir?

"Roma"da çıxış edən futbol üzrə Türkiyə millisinin üzvü Cengiz Öndər karyerasını İngiltərədə davam etdirə bilər. İngiltərə mətbuatının yazdığına görə, İngiltərə nəhəngi "Mançester Yunayted" türkiyəli futbolçunun xidmətində maraqlıdır...



Bax 16

**BMT açıqladı: Heç bir ölkə koronavirusa təkbaşına qalib gələ bilməyəcək**



Bax 10

**Maska taxmaq koronavirusdan nə qədər qoruyur?**



Bax 16

**Fazil Mustafa Bəxriyar Hacıyevin Əli Kərimlinin nökəri olduğunu iddia etdi**



Bax 13

# <u>İlham Əliyev:</u> "Heç bir sosial layihə ixtisar edilməyib"

## *"Koronavirusla əlaqədar ilkin mərhələdə qabaqlayıcı tədbirlərimiz bizi böyük fəlakətdən qorudu"*




### "Heç bir sosial layihə ixtisar edilməyib, əksinə, biz 10 modul tipli xəstəxananın tikintisini təmin edirik"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncə şəhərinə səfərə gəliblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydular.***

Qeyd edək ki, bu, Prezident İlham Əliyevin Gəncəyə 16-cı səfəridir. Belə səfərlər zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə bağlı dövlətimizin başçısının verdiyi göstərişlər, imzaladığı sərəncamlar şəhərin hərtərəfli inkişafına zəmin yaradır. Belə ki, 2003-cü ilə nisbətdə 2019-cu ildə Gəncədə məhsul buraxılışı 4,3 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 2,8 dəfə, əsas kapitala yönəldilmiş vəsait 60 dəfə, o cümlədən tikinti-quraşdırma işləri 63,1 dəfə artıb. 2003-cü ildən 2020-ci ilin birinci rübü ərzində Gəncədə 60 587, bu il isə ödənişli əsaslarla 2075, pandemiya ilə əlaqədar üç min müvəqqəti iş yeri açılıb.






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncədə "NB Satınalma və Ticarət" MMC-nin süni mərmər və qranit istehsalı zavodunun açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma müəssisənin fəaliyyəti barədə məlumat verildi.

Prezident İlham Əliyev zavodu işə saldı. Məlumat verildi ki, müəssisədə süni mərmər, keramoqranit - yəni, yer və divar üzlükləri, metlax və quru inşaat qarışıqları istehsal ediləcək. Hazırda burada illik istehsal gücü 40 min ton astar və 20 min ton üzlük olan tikinti materialları istehsalı zavodu tikilib və avadanlıqları quraşdırılıb. Məhsulların hazırlanmasında istifadə olunan xammal Daşkəsən, Şəmkir, Ağstafa və Qaradağ rayonlarından gətirilir. Müəssisənin illik istehsal gücü - 3 milyon kvadratmetr olacaq. Burada hazırlanan məsulların Rusiya Federasiyasına, Gürcüstana və Orta Asiya respublikalarına satışı nəzərdə tutulur. Zavodda 300-dən çox yeni iş yeri yaradılıb.

İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhəri ərazisində Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən inşa edilən yaşayış kompleksinin tikintisi ilə tanış olublar. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma tikinti işlərinin gedişi barədə məlumat verildi.

Bildirildi ki, Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən 2020-ci ilin fevral ayında Gəncə şəhərinin Azərbaycan Bayrağı küçəsində yaşayış kompleksinin tikintisinə başlanılıb. Kompleksə 18 çoxmənzilli bina və əsaslı təmirə ehtiyacı olan 28 və 46 nömrəli ümumtəhsil məktəbləri üçün bina, uşaq bağçası və digər xidmət obyektləri daxildir. Cari ilin avqust ayında ümumtəhsil məktəbi binasının və 2021-ci ilin sonunadək 11 yaşayış binasının istismara verilməsi nəzərdə tutulub. Layihəyə əsasən yaşayış binaları doqquz və on iki mərtəbəli olacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında iştirak ediblər.

***Ardı Səh. 3***

# İlham Əliyev: “Heç bir sosial layihə ixtisar edilməyib”

*“Koronavirusla əlaqədar ilkin mərhələdə qabaqlayıcı tədbirlərimiz bizi böyük fəlakətdən qorudu”*

Əvvəli Səh. 2

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım yeni tibb müəssisəsində yaradılan şəraitlə tanış olublar.

Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, digər modul tipli infeksion xəstəliklər korpuslarında olduğu kimi burada da orta simptomları olan infeksion koronavirus xəstələrin qəbulu və müalicəsi üçün şərait yaradılıb. Bildirilib ki, eyni zamanda, yeni tibb müəssisəsinin daha ağır simptomları olan xəstələrin qəbulu üçün əlavə avadanlıqlarla təchiz olunması istiqamətində işlər görülür. Üç korpusdan ibarət olan, ümumilikdə 100 palata və 200 çarpayılıq bu xəstəxana kompleksi mərkəzləşdirilmiş oksigen generator sistemi, həmçinin xüsusi havalandırma sistemi ilə təchiz olunub. Bu sistem havanı ventilyasiya qurğusu ilə təmizlədikdən sonra palatalara ötürəcək.



Modul tipli infeksion xəstəliklər korpusu ilə tanışlıqdan sonra dövlətimizin başçısı və birinci xanım bir qrup tibb işçisi ilə görüşdülər. Prezident İlham Əliyev görüşdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, ölkəmizdə sayca 5-ci modul tipli xəstəxana açılır. Onlardan ikisi Bakıda, biri Sumqayıt şəhərində, biri isə Abşeron rayonunda artıq fəaliyyətə başlayıbdır. Yaxın həftələrdə digər şəhərlərdə də bu tipli xəstəxanalar istifadəyə veriləcək:

“Beləliklə, bu xəstəxanaların sayı 10-a çatacaq. Bu, bizə imkan verəcək ki, əlavə 2 min çarpayı əldə edək. Nəzərə alsaq ki, koronavirus xəstələrinin sayı artır, bu, COVID-19-a qarşı mübarizədə öz rolunu oynamalıdır.

> *“Mən maska ilə gəzirəm. Göstərmişəm, bir daha göstərirəm. Bütün qapalı yerlərdə maska taxıram. Yaxşı, indi Prezident bunu edirsə, niyə başqası edə bilməz? Nə çətin şeydi bu? Heç bir əziyyət vermir, heç bir problem yaratmır. Sadəcə olaraq, məsuliyyətsizlik və deyə bilərəm ki, eqoizm və biganəlik”*



Bu xəstəxanaların tikintisi ilə əlaqədar qərar aprel ayında qəbul edilmişdir. O vaxt xəstələrin sayı kifayət qədər az idi. Eyni zamanda, yəqin ki, xatırlayırsınız, aprel ayında xəstələnənlərin və sağalanların arasında fərq müsbət idi. Daha çox insan sağalırdı, nəinki xəstələnirdi. Amma buna baxmayaraq, hesab etdik ki, əlavə çarpayıların əldə edilməsi də faydalı ola bilər. Həyat göstərdi ki, bu nə qədər düzgün qərar idi. Çünki bu gün xəstələrin sayı artır və beləliklə, bizə yeni çarpayılar lazımdır.



Bütövlükdə deyə bilərəm ki, əgər son illər ərzində mənim göstərişimlə ölkəmizin hər bir yerində, o cümlədən Bakı şəhərində müasir xəstəxanalar tikilməsəydi, bu gün biz koronavirusla mübarizədə çox böyük problemlərlə üzüzə qala bilərdik. Son illərdə ölkəmizin səhiyyə sisteminin möhkəmləndirilməsi işində ən vacib məsələlərdən biri yeni xəstəxanaların tikilməsi, köhnə xəstəxanaların isə əsaslı təmiri və bərpası olmuşdur. Beləliklə, bizim şəhərlərin mütləq əksəriyyətində xəstəxanalar tikilib və bir neçə şəhərdə tikinti davam edir. Sonuncu xəstəxana Samux şəhərində istifadəyə veriləcəkdir. Bu məqsədlər üçün vəsait ayrıldı və əlavə vəsait də ayrılacaq. Bu gün Bakı şəhərində koronavirus xəstələri daha çox son illər ərzində inşa edilmiş xəstəxanalarda müalicə alırlar. Xüsusilə “Yeni klinika”nı qeyd etməliyəm. O, ölkəmizdə ən gözəl, ən müasir klinikadır və ən böyük tibb ocaqlarından biridir. Təxminən 600 çarpayılıq klinikada bu gün xəstələr müalicə alır. Eyni zamanda, bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə tikilmiş Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik və Cərrahiyyə korpuslarının fəaliyyəti hesabına biz xəstələri müalicə edirik.

Koronavirusla əlaqədar ilkin mərhələdə qabaqlayıcı tədbirlərimiz bizi böyük fəlakətdən qorudu. Çünki Azərbaycanda yoluxanların sayı əhalinin ümumi sayı ilə müqayisədə çox aşağıdır. Cəmi 13 min insan yoluxmuşdur. Onların böyük əksəriyyəti sağalıb və xəstəxanalardan çıxıbdır. Ona görə qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlərin çox böyük faydası olmuşdur.

Bildiyiniz kimi, bütün dünya bu xəstəlikdən əziyyət çəkir və xəstələrin sayının kəskin artması bir çox ölkələrin səhiyyə sisteminə də böyük zərbə vurmuşdur. Əslində, heç bir ölkənin səhiyyə sistemi belə sürətlə artan xəstələrin müalicəsinə hazır deyildi. Bu, mümkün də deyildi. Eyni zamanda, digər problem xəstələrə xidmət edən həkimlərin sayı ilə bağlıdır. Həkimlərin sayı 2-3 ay ərzində arta bilməz. Ona görə bu da bir çox ölkələr üçün böyük problemə çevrilmişdir, o cümlədən bizim üçün. Odur ki, məhdudlaşdırıcı tədbirlərin görülməsində böyük fayda olmuşdur. Bildiyiniz kimi, may ayının əvvəlindən artıq yumşalma meyilləri başlamışdır. Bunun da səbəbi o idi ki, bir daha qeyd etmək istəyirəm, sağalanların sayı yoluxanların sayından çox idi.

Ardı Səh. 4

# İlham Əliyev: “Heç bir sosial layihə ixtisar edilməyib”

## *“Koronavirusla əlaqədar ilkin mərhələdə qabaqlayıcı tədbirlərimiz bizi böyük fəlakətdən qorudu”*

Əvvəli Səh. 3

Ancaq son müddətin dinamikası göstərir ki, bizim bütün tələblərimizə baxmayaraq, bəzi insanlar məsuliyyətsizlik göstərərək elementar qaydalara əməl etmirlər. Bu qaydalar haqqında artıq bəlkə min dəfə deyilib. Həm mən demişəm, həkimlər deyib, tibb mütəxəssisləri deyib, müxtəlif insanlar deyib. Təkcə Azərbaycanda yox, bütün dünyada bu qaydalar çox sadədir və onlara əməl etmək o qədər də böyük əziyyət tələb etmir - maska, məsafə və dezinfeksiya. Bu üç əsas amil insanları qoruyur. Əgər bu üç amilə əməl olunarsa, onda yoluxmanın sayı kəskin azalacaq. Ancaq biz nəyi görürük? Onu görürük ki, yumşalma tədbirlərindən sonra Azərbaycanda bu qaydalar kütləvi surətdə pozulur və məhz buna görə biz yenidən məhdudlaşdırıcı tədbirləri tətbiq etdik. Çünki gördük ki, xəstələnənlərin sayı, dinamikası artır və əgər belə gedərsə, bizim də səhiyyə sistemimiz buna davam gətirə bilməz. Ona görə bu həftənin əvvəlindən Bakı şəhərində və bir neçə digər şəhərlərdə daha da sərt karantin rejimi tətbiq edilir. Bunun əsas və yeganə səbəbi odur ki, əfsuslar olsun, bəzi insanlar elementar qoruyucu qaydalara əməl etmirlər. Bu sərtləşdirilmiş rejim nə qədər davam edəcək, bunu həyat və koronavirusun yayılması göstərəcək.

Həkimlər yaxşı bilirlər və artıq ictimaiyyətə də dəfələrlə bu fikir çatdırılıb ki, sərtləşdirilmiş tədbirlərin əsas məqsədi yoluxmanın sürətini azaltmaqdır. Hər kəs yaxşı başa düşür ki, koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Biz bu xəstəliklə yaşamağa məcburuq və artıq kütləvi surətdə yeni davranış qaydaları tətbiq edilməlidir. Ona görə bütün ölkələrin əsas səyləri odur ki, yoluxmanın sürəti azalsın, az insan xəstələnsin və ölkələrin səhiyyə sistemi imkan versin ki, bütün xəstələr lazımi müalicə alsınlar. Odur ki, biz bu addımı atdıq və hesab edirəm ki, düz etmişik, baxmayaraq ki, indi bəzi ölkələr daha da irəliyə gedərək, daha çox yumşaldıcı addımlar atır. Təbii ki, bunun əsas səbəbi iqtisadi sahədə olan problemlərdir.

Bizdə də bu problemlər var, beş ayın nəticələri onu göstərir ki, bizim iqtisadiyyatımız da tənəzzülə uğrayıb. O qədər də böyük tənəzzül deyil - cəmi 1,7 faiz. Ancaq biz ilin əvvəlində çox yaxşı iqtisadi göstəricilər nümayiş etdirmişdik. Bizim çox böyük planlarımız, çox gözəl perspektivlərimiz var idi. Bütün aparıcı beynəlxalq maliyyə qurumları da 2020-ci ili Azərbaycanda sürətli inkişaf ili kimi görürdülər və bunu bəyan edirdilər. Biz şüurlu şəkildə məhdudlaşdırıcı tədbirləri gördük və deyə bilərəm, dünyada ilk ölkələrdən idik ki, bütün lazımi məhdudlaşdırıcı tədbirləri gördük, məktəbləri, ali məktəbləri, ictimai iaşə obyektlərini, böyük ticarət mərkəzlərini bağladıq ki, kütləvi yoluxmanın qarşısı alınsın.



> “Bir daha demək istəyirəm, - mən bunu demişəm, - mənim üçün insanların sağlamlığı əsas prioritetdir. Əlbəttə, iqtisadiyyat tənəzzülə uğrayır və hələ bəlli deyil ki, ilin sonuna qədər bizi hansı problemlər gözləyir. Hər kəs bunu Bilməlidir”




Ona görə hesab edirəm ki, biz düzgün addım atmışıq. Çünki bir daha demək istəyirəm, - mən bunu demişəm, - mənim üçün insanların sağlamlığı əsas prioritetdir. Əlbəttə, iqtisadiyyat tənəzzülə uğrayır və hələ bəlli deyil ki, ilin sonuna qədər bizi hansı problemlər gözləyir. Hər kəs bunu bilməlidir. Eyni zamanda, dünya bazarlarında neftin qiyməti hələ də sabitləşməyib. Əlbəttə, o böyük çökmənin qarşısı alınıb və neftin qiyməti tədricən bərpa edilib. Ancaq Azərbaycan büdcəsi neftin qiymətinin 55 dollarına hesablanıb və beş ayın nəticəsində neftin orta qiyməti 41 dollardır. Ona görə bizim gəlirlərimiz azalır. Bir neçə önəmli iqtisadi sahə demək olar ki, fəaliyyətsiz qalıb. Onların biri turizm sahəsidir. Biz son 4-5 il ərzində turizm sahəsini çox güclü və təkanverici sektor kimi formalaşdırmışdıq və ildən-ilə Azərbaycana gələn turistlərin sayı artırdı. Keçən il rekord həddə çatmışdır, ölkəmizə 3 milyon xarici vətəndaş gəlmişdir. Müxtəlif hesablamalara görə, onlar Azərbaycanda təqribən bir yarım - iki milyard dollar pul xərcləyiblər. Bu, ölkəmizə gələn valyutanın artması deməkdir. Yəni, biz bundan məhrum olduq.

Bir neçə başqa sektor artıq uzun müddətdir ki, fəaliyyətsizdir. Dövlət o sektorların və orada çalışan insanların problemlərini öz üzərinə götürübdür. Biz indi 600 mindən çox insanı lazım olan vəsaitlə təmin edirik və 190 manatın verilməsi müddəti uzadıldı, baxmayaraq ki, bu da böyük yükdür və böyük xərclər deməkdir. Amma biz bunu edirik. Çünki işini itirmiş, yaxud da ki, aztəminatlı təbəqəyə aid olan, hətta qeyri-rəsmi şəkildə işləyən insanlar faktiki olaraq çətin vəziyyətdə qalıblar və kim onlara kömək edəcək?! Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır.

Ona görə həm birinci mərhələdə - sərtləşdirilmiş məhdudlaşdırıcı tədbirlər tətbiq olunanda və bu gün biz məcbur olub növbəti dəfə bu addımlara getdik, şəxsən mənim üçün seçim yox idi. İlk növbədə, insanların həyatı və onların sağlamlığıdır. İqtisadi problemlər arxa planda olmalıdır.

Bir də ki, biz son illər ərzində görülmüş işlər, aparılmış islahatlar nəticəsində iqtisadi gücümüzü böyük dərəcədə artırmışıq. Bizim iqtisadiyyatımız sabit, dayanıqlı iqtisadiyyatdır. Hesab edirəm ki, bu ilin sonuna qədər iqtisadi sahədə problemlər kəskinləşsə də, insanların həyat tərzinə bunun böyük təsiri olmayacaqdır. Heç bir sosial layihə ixtisar edilməyib. Bu gün mənim Gəncəyə səfərim çərçivəsində açılan və açılacaq obyektlərin sayı onu göstərir. Heç bir sosial layihə ixtisar edilməyib, əksinə, biz 10 modul tipli xəstəxananın tikintisini təmin edirik. Biz məcburi köçkünlər üçün yeni şəhərciklər salırıq. Onlardan biri də Samux rayonundadır. Yeni məktəblər tikilir. Bu gün Gəncədə Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə yeni yaşayış kompleksinin tikintisi ilə tanış olmuşam. Orada da məktəb, bağça tikilir. Bütün bunlar dövlət büdcəsi hesabına təmin edilib.

Mən demişəm ki, sosial sahədə heç bir ixtisar olmayacaq. Hesab edirəm ki, koronavirus pandemiyasının miqyasından asılı olmayaraq, ilin sonuna qədər insanların yaşayış səviyyəsi dəyişməz olaraq qalmalıdır. Keçən il isə, - hər kəs yaxşı bilir, - çox böyük sosial paket tətbiq olundu. Minimum əməkhaqqı orta hesabla iki dəfə, minimum pensiya 70 faiz artdı. Müavinətlər 50 faiz, 100 faiz artdı. Problemli kreditlər kompensasiya şəklində insanlara maddi hədiyyə olaraq verildi. Yəni, bu məqsədlər üçün milyardlarla manat xərcləndi. Pandemiyaya qarşı mübarizə üçün 3 milyard manatdan çox vəsait nəzərdə tutulur. Bu vəsaitin bir hissəsi xərcləndi və biz yeni avadanlıqlar alırıq. İndi 23 laboratoriyamız var. Amma, eyni zamanda, problem ondadır ki, artıq fevral, mart aylarında sifariş edilmiş avadanlığı, hansısa cihazı biz bəzən ala bilmirik. Çünki bunu istehsal edən ölkələr onu satmır, özləri üçün saxlayırlar. Problem bundadır.

*Ardı Səh. 5*

# İlham Əliyev: "Heç bir sosial layihə ixtisar edilməyib"

## *"Koronavirusla əlaqədar ilkin mərhələdə qabaqlayıcı tədbirlərimiz bizi böyük fəlakətdən qorudu"*

Əvvəli Səh. 4

Ona görə ölkəmiz bu problemlə üzləşib və biz çalışmalıyıq ki, bu vəziyyətdən şərəflə çıxaq. Ancaq dövlət tərəfindən atılmış addımlar əgər kütləvi surətdə ictimaiyyət tərəfindən dəstəklənməsə, bunun xeyri olmayacaq. Dəstək isə nədən ibarətdir? Sadəcə olaraq, üç adi qaydanı gözləmək, buna əməl etmək və məsuliyyət, nizam-intizam göstərmək. Biz birlik, həmrəylik nümayiş etdirmişik. Çətin vəziyyətdə olan insanların problemlərini həll edirik, o cümlədən ictimai təşkilatlar, Heydər Əliyev Fondu. Əlbəttə ki, əsas yük dövlətin üzərindədir. Aztəminatlı təbəqəyə yardımlar edilir. Mənim təşəbbüsümlə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna sahibkarlar, ayrı-ayrı adamlar tərəfindən 100 milyon manatdan çox vəsait daxil edilib. Bu, böyük vəsaitdir və həmrəyliyin təzahürüdür. Necə ki, həmrəylik, birlik göstəririk, məsuliyyət də göstərməliyik. Bunu inkişaf etmiş bir neçə ölkənin liderləri qeyd edir ki, bu, müharibədir və burada düşməni görmək mümkün deyil. Eyni zamanda, bilmək mümkün deyil, bu müharibə nə vaxt bitəcək. Bunu heç kim deyə bilməz. İndi əlbəttə ki, hər kəs peyvəndi gözləyir, o cümlədən də biz. Amma bəzi həkimlərin fikrinə görə, peyvənd də bəlkə bu koronavirusu tam məhv edə bilməyəcək. Kim bilir? Bu peyvənd hələ icad edilməyib. Hələ bunun üzərində iş aparılır. Amma yoluxanların sayı artır, beləliklə, təhlükə də artır. Ona görə burada ancaq və ancaq vətəndaşların məsuliyyəti ön planda olmalıdır."

Dövlət başçısı qeyd edib ki, dövlət nə lazımdırsa, onu edir. Bundan artıq nəsə etmək mümkün deyil:

"Çünki nə lazım idisə, biz onu etmişik və edəcəyik. Bu məqsədlər üçün istənilən vəsaiti xərcləməyə hazırıq, vəsaitimiz də var və heç kimdən də asılı deyilik. Bəzi ölkələrdən fərqli olaraq, heç kimə müraciət etmirik. Onu da bildirməliyəm ki, beynəlxalq maliyyə qurumlarının məlumatına görə, dünyada 150 ölkə kredit üçün müraciət edib. Yəni, beynəlxalq birliyin əksər hissəsi. Azərbaycan etməyib. Çünki ehtiyac yoxdur. Özümüz edirik, vəsaitimiz də var və xərcləyirik. Amma gərək indi məsuliyyətsiz adamlar bunu dərk etsinlər. Bir də ki, bu adamlara qarşı ictimai qınaq olmalıdır. Qapalı yerlərdə maska taxmayana qarşı, əlbəttə ki, cərimə tətbiq edilməlidir. Amma, eyni zamanda, bunu görən başqa vətəndaş onu tənbeh etməlidir, onu başa salmalıdır. Gözləməməlidir ki, polis gələcək, onu cərimələyəcək. Polis də insanları qorumaq üçün gecə-gündüz küçələrdədir, gecə-gündüz fasiləsiz işləyir. Ona görə qapalı şəraitdə hər kəs maska taxmalıdır.

Mən maska ilə gəzirəm. Göstərmişəm, bir daha göstərirəm. Bütün qapalı yerlərdə maska taxıram. Yaxşı, indi Prezident bunu edirsə, niyə başqası edə bilməz? Nə çətin şeydi bu? Heç bir əziyyət vermir, heç bir problem yaratmır. Sadəcə olaraq, məsuliyyətsizlik və deyə bilərəm ki, eqoizm və biganəlik. Gənc nəslin nümayəndələri üçün bu xəstəlik o qədər də təhlükəli deyil və hesab edir ki, xəstələnərəm, sağalaram. Axı, yaxşı sən sağalarsan, amma sən yaşlı insanı da yoluxdurarsan. Sən onun həyatını təhlükə altına atırsan. Biz bu məsuliyyətsizliyə dözməliyikmi? Çünki bu, cinayətdir. Ona görə ictimai qınaq və çox ciddi dövlət nəzarəti olmalıdır. Mən bu məsələ ilə bağlı Operativ Qərargaha göstəriş verdim ki, çox ciddi dövlət nəzarəti olmalıdır. Belə olan halda biz bütün tədbirləri daha operativ şəkildə görə bilərik və bu vəziyyətdən az itkilərlə çıxa bilərik. Mən demişəm və həkimlər yaxşı bilir. Bir xəstənin müalicəsi üçün nə qədər həkim çalışır, nə qədər həkim gecə-gündüz o ağır vəziyyətdə, o kombinezonda, eynəkdə, maskada əziyyət çəkir. Biz həkimlərin fəaliyyətini yüksək qiymətləndiririk. Ancaq hər bir insan bunu bilməlidir. Həkimlər də yoluxur, həkimlər də ölür. Bir daha demək istəyirəm ki, bizim indi nə qədər həkimimiz var, hamısını bu işlərə cəlb edirik. Bizim bundan iki dəfə çox həkimimiz yoxdur. Sabah bu pandemiya daha geniş vüsət alsa, əgər bu gün, misal üçün 300-400 adam yoluxursa, sabah daha çox adam yoluxarsa, bunları biz harada yerləşdirəcəyik. Tutaq ki, yerləşdirdik, indi xəstəxanalar tikilir və bizim boş çarpayılarımız var, ancaq həkimlərin sayını necə artıra bilərik?! Gərək hər kəs bu haqda fikirləşsin, hər kəs düşünsün.

İdarələrdə idarə rəhbərləri görəndə ki, onun işçisi maska taxmır, əlbəttə, tədbir görməlidir, dərhal reaksiya verməlidir, müvafiq qurumlara məlumat verməlidir. Əgər belə davam edərsə, mən deyəcəyəm ki, cərimələrin həcmini artırsınlar. Çünki indi böyük imkanlara sahib olan adamlar nə üçün 50 manat, 100 manat cərimə verirlər. O çıxır, maşınına oturur, hara istəyir gedir. Tutaq ki, onu saxladılar, saxlamadılar, onu da hələ bilmək olmur. Çünki hər kəsi saxlamaq da mümkün deyil. Cəriməni verir gedir, sonra istədiyini edir. Ona görə mən tapşırıq vermişəm ki, dövlət orqanları, yerli icra orqanları, hüquq mühafizə orqanları tərəfindən bu məsələyə daha ciddi nəzarət olmalıdır. Çünki bu, milli təhlükəsizlik məsələsidir.

İndi görün inkişaf etmiş ölkələrdə nələr baş verir. Vəziyyət tamamilə böhran həddinə çatıb. O ölkələrin ki, dövlətçilik ənənələri yüzilliklərlə ölçülür və o ölkələrin səhiyyə sistemi dünyada nümunə kimi təqdim olunur, onlar da bacarmırlar, çünki bu, mümkün deyil. Ona görə mənim bu sözlərim hesab edirəm, hər kəs üçün əsas olmalıdır - həm vətəndaşlar üçün, - onlar daha məsuliyyətli olmalıdırlar, - həm də vəzifə tutanlar, dövlət məmurları üçün. Dövlət nəzarəti, ictimai nəzarət, vətəndaşların nizam-intizamı və məsuliyyəti artmalıdır. Əgər biz görsək ki, nizam-intizam bundan sonra da pozulur, onda fikirləşərik, daha hansı təsirli addımlar atılsın ki, bu qaydaları pozanlara qarşı daha ciddi tədbirlər görülsün.

Bütün bunlarla bərabər, eyni zamanda, deməliyəm ki, həyat davam edir. Biz bu il nəzərdə tutulmuş bütün proqramları icra etməliyik. Bu gün Gəncə şəhərində bir neçə vacib obyektin açılışı nəzərdə tutulur. Mən bu gün artıq yeni zavodun açılışında iştirak etdim. Mənə verilən məlumata görə, orada 300-dən çox insan işlə təmin ediləcək. Bu zavodda istehsal olunan məhsullar idxalı əvəzləyəcək və yerli bazarı təmin edəcək."

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncədə "Şah Abbas" və "Uğurlu Xan" karvansara kompleksinin bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma kompleksdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, Gəncənin şəhər kimi inkişafı Böyük Şah Abbasın adı ilə bağlıdır. Şəhərin tarixən formalaşmış mərkəzi hissəsi gəncəlilər tərəfindən "Şah Abbas meydanı" adlandırılan bazar meydanı olub. Özünəməxsus memarlıq elementlərinə görə Gəncənin baş meydanı Azərbaycanın əksər şəhərlərindəki bazar meydanlarından seçilib. Bu meydan XVII əsrdə böyüklüyünə görə yalnız Təbrizin bazar meydanından geri qalırmış. Ehtimal olunur ki, bazar meydanının ətrafında "Şah Abbas" karvansarası 1663-1664-cü illərdə Gəncə bəylərbəyi olmuş Murtuza Qulu xan Ziyad oğlunun qardaşı oğlu Uğurlu xanın vəsaiti ilə memar Şeyx Bahəddin Məhəmməd Amilinin planı üzrə tikilmiş və xan nəslinə məxsus olmuşdur. Karvansara dövrünün əzəmətli tikililərindən olduğundan Uğurlu xan ona böyük hökmdar Şah Abbasın adını verib.

Eyni dövrdə tikilmiş nisbətən kiçik həcmli karvansara isə əhali arasında "Uğurlu Xan" karvansarası adlandırılmışdır. XIX əsrin birinci yarısında Rusiya-İran müharibəsindən sonra Azərbaycanın şimal hissəsinin böyük şəhərlərində rus hərbi qarnizonları yerləşdirilmiş və rus qoşunları tərəfindən bütün xan mülki kimi karvansaralar da müsadirə edilmişdir. Bu və digər səbəblərdən abidə öz görkəmini itirmişdi. Prezident İlham Əliyevin müvafiq göstərişlərinə əsasən "Şah Abbas" Karvansarası əsaslı şəkildə əvvəlki görkəminə uyğun və müasir infrastrukturla təmin edilməklə yenidən bərpa olunub, ətraf ərazi abadlaşdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncə Dövlət Dram Teatrının yeni binasında tikinti işlərinin gedişi ilə tanış olublar. Dövlətimizin başçısına və birinci xanıma binada aparılan tikinti işləri barədə məlumat verildi. Bildirildi ki, teatrın yeni binasında inşaat işləri artıq tamamlanmaq üzrədir. Hazırda teatrda dekorasiya və digər işlərin yerinə yetirilməsi istiqamətində tədbirlər görülür. Binada geniş tamaşaçı tutumlu zal və digər yardımçı otaqlar yerləşəcək.

Gəncədə aparılan tikinti, abadlıq-quruculuq işləri arasında yolların, keçidlərin, körpülərin tikintisi və təmiri də əsas prioritetlərdəndir. Son vaxtlar Gəncəçay çayı üzərində eyni vaxta beş körpünün bərpası başa çatdırılıb.

AZƏRTAC xəbər verir ki, iyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin körpülərdə görülmüş işlərlə tanış oldular. Bildirildi ki, bu beş körpüdən biri - Müseyib Bağırov küçəsinin Gəncəçay çayı ilə kəsişmədə yerləşən körpü 1986-cı ildə, digər dördü isə ötən əsrin 50-ci illərində tikilib. Körpülər tamamilə köhnəldiyindən gediş-gəliş üçün təhlükəli vəziyyətə düşmüşdü. Bunu nəzərə alaraq dövlətimizin başçısı keçən il mayın 16-da Gəncə şəhərinin Şah İsmayıl Xətai və Nizami Gəncəvi prospektlərinin, Müseyib Bağırov, Mirzə Abbas Abbaszadə və Əlövsət Məmmədov küçələrinin Gəncəçay çayı ilə kəsişmələrində yerləşən və qəzalı vəziyyətdə olan 5 körpünün bərpası üçün Prezidentin ehtiyat fondundan Avtomobil Yolları Dövlət Agentliyinə 6,4 milyon manat vəsait ayrılması barədə Sərəncam imzalamışdı. Həmin vəsait hesabına körpülərdə təmir-bərpa işləri optimal müddətdə başa çatdırılıb. Bütün körpülərin hərəkət hissəsinin, məhəccərlərin, çay məcrasının aşağı və yuxarı hissələrinin, sağ, sol sahil yamaclarının dəmirbetonla bərkidilməsi işləri aparılıb, hərəkət hissəsinin hər iki tərəfində təkərqaytaranlar quraşdırılıb, səkilər təmir olunub. Beləliklə bundan sonra həm piyadalar, həm də avtomobillər bu körpülər üzərindən təhlükəsiz hərəkət edə biləcəklər.

Burada dövlətimizin başçısına tikintisi başa çatmış yollar barədə də məlumat verildi. Qeyd edildi ki, Gəncə-Kəlbəcər-Laçın avtomobil yolunun 5 kilometrlik hissəsinin yenidən qurulması bu bölgədə turizmin inkişafında böyük rol oynamaqla Gəncə şəhərindən giriş-çıxışı yaxşılaşdıracaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncəyə səfərləri çərçivəsində Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım yeni tədris korpusunda yaradılan şəraitlə tanış olublar. Diqqətə çatdırılıb ki, ölkədə ərzaq probleminin həllində önəmli rola malik olan kənd təsərrüfatının elmi əsaslarla inkişafında həmişə mühüm rolu olmuş bu ali təhsil müəssisəsi son illər tamamilə yenidən qurulur. Azərbaycan Prezidentinin 2018-ci il 22 yanvar tarixli Sərəncamına əsasən, dövlət əsaslı vəsait qoyuluşu - investisiya xərcləri hesabına tikilmiş yeni tədris korpusunda müasir təfəkkürlü kadrların hazırlanması, eləcə də elmi tədqiqatların səmərəli aparılması üçün hər cür şərait yaradılıb. Professor-müəllim heyətinin və tələbələrin ixtiyarına ən yeni əyani vasitələr və avadanlıqla təchiz olunmuş auditoriyalar və laboratoriyalar verilib. Binada bütün zəruri infrastruktur qurulub. İnzibati xidmət və digər yardımçı otaqlar yaradılıb. Yeni tədris korpusunda ümumilikdə 3 min tələbə iki növbədə təhsil alacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Gəncə İdman Sarayının tikintisi ilə tanış olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının müvafiq Sərəncamı ilə Gəncə şəhərində daha bir möhtəşəm idman kompleksi tikilməkdədir. Gəncə İdman Sarayının 2022-ci ildə istismara verilməsi nəzərdə tutulur. İkimərtəbəli bu qurğuda böyük idman zalı, üzgüçülük hovuzu, beynəlxalq şahmat turnirlərinin keçirilməsi üçün zal, şahmat, güləş, boks və digər idman növləri üzrə məktəblər, bouling və atıcılıq zalları, istirahət və iaşə obyektləri fəaliyyət göstərəcək. İdman sarayı ən müasir avadanlıqla təchiz olunacaq. Gəncə İdman Sarayında inşaat işlərinin gedişi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev tikintinin keyfiyyətlə aparılması və obyektin vaxtında istifadəyə verilməsi ilə bağlı tapşırıqlarını verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Samux rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Samux şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu. İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Samux rayonunun ərazisində məcburi köçkün ailələri üçün inşa edilən yaşayış məhəlləsinin tikintisi ilə tanış olub. Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib. İyunun 24-də Samux rayonunun Qaraağaclı kəndində "Aqro Dairy" MMC-nin aqroparkının təqdimatı olub, buğda biçininə və qarğıdalı səpininə start verilib. Dövlətimizin başçısı tədbirlərdə iştirak edib.

## Özbəkistan portalında “Faşizm üzərində qələbə: Azərbaycanın real töhfəsi” adlı məqalə verilib

Özbəkistanın kultura.uz portalında “Faşizm üzərində qələbə: Azərbaycanın real töhfəsi” sərlövhəli məqalə verilib. AZƏRTAC xəbər verir ki, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə dərc edilən məqalədə Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin qazanılmasında Azərbaycanın rolu haqqında geniş söhbət açılır. Bildirilir ki, Qələbənin təmin edilməsində Azərbaycan neftinin rolu əvəzsiz olub. 1941-ci ilin sonunda Azərbaycanın zavodlarında 130 növ müxtəlif silah və sursat istehsal edilib və cəbhəyə göndərilib.


kultura.uz/view_2_r_15224.html?fbclid=IwAR2I8vqQJBhLnODq1C68q_pbLjsK4awS1giX4Tv0hjUsOUfHeeRwP0I-Opc
Мы освещаем новости культуры Узбекистана: театр, кино, музыка, история, литература, просвещение и многое другое.
Культура.уз
Поиск по сайту
Главная | Панорама | Вернисаж | Театр | Кинопром | Музыка | Турбизнес | Личная жизнь | Литература | Мир знаний
19.06.2020 / 19:59:15
Победа над фашизмом: реальный вклад Азербайджана
Роль Азербайджана и вклад страны в победу в Великой Отечественной войне всегда приуменьшались. Однако стоит отметить, что не только нефть была вкладом Азербайджана в победу в Великой Отечественной войне.
Уже к концу 1941 г. в Баку производилось более 130 видов оружия, запчастей и боеприпасов (противотанковые и другие мины, дымовые шашки, ручные, фугасные и ранцевые огнемёты, фугасные
Кинопром
11.06.2020 / 14:38:34
Программа "Ахборот" в моей жизни. И почему продолжение следует
07.06.2020 / 17:01:23
Сегодняшняя телепрограмма "Узбекский характер посвящена 100-летию со дня рождения писателя Саида Ахмада и новому телесериалу "Сабр-у садокат"
Турбизнес

Yazıda bildirilir ki, Bakı limanında gəmilər və sualtı qayıqlar təmir edilib, zavodlarda tanklar istehsal olunub. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə Azərbaycan kimyaçıları 38 növ sürtgü yağı, təyyarələr üçün 9 növ benzin, 8 cür dizel yanacağı, həmçinin məşhur “Molotov kokteyli” istehsal ediblər.

## Cəlal İsayev: Koronavirus infeksiyasına yoluxma hallarının qarşısını almağın yeganə yolu qaydalara riayət etməkdir



“Koronavirus infeksiyasına yoluxma hallarının qarşısını almağın yeganə yolu qaydalara riayət etməkdir. Əks təqdirdə xoşagəlməz hallarla rastlaşacağıq”. Bu sözləri respublikanın baş infeksionisti Cəlal İsayev deyib.

Onun sözlərinə görə, hava, damcı yolu ilə yayılan infeksiyalarla ancaq, maska taxıb, sosial məsafə qoruyub, izolyasiya qaydalarına əməl etməklə effektiv mübarizə aparmaq olar.

“Lakin bir qisim insanlarda infeksiya olmasına baxmayaraq, onlar bunu hiss etmirlər və əhali arasında dolaşaraq, xəstəliyi yayırlar. Son günlərdə virus sürətlə yayılmasının da səbəbi budur. Odur ki, insanlar maska taxıb, sosial məsafə saxlasalar yaxşı olar. Xəstəliyin əlamətlərini və ya narahatçılıq hiss edənlər dərhal həkimə müraciət etməlidir. Ancaq bizim vətəndaşlarımız 3-4 gün xəstə halda gəzib, ətrafdakılarını yoluxdurur, özünün də səhhəti ağırlaşanda həkimə müraciət edir. O zaman da gec olur”- deyə, C.İsayev qeyd edib.

## AŞPA-nın Bərabərlik və ayrı-seçkilik komitəsinin onlayn iclası olub

İyunun 24-də AŞPA-nın Bərabərlik və ayrı-seçkilik komitəsinin onlayn iclası keçirilib. İclasda “Xarici siyasətin gender ölçüsü”, “Namus” cinayətlərinə qarşı mübarizənin gücləndirilməsi”, “COVID-19 böhranının qadın hüquqlarına təsiri” və digər aktual mövzularda məruzələr dinlənilib və fikir mübadiləsi aparılıb.



AZƏRTAC xəbər verir ki, iclasda ölkəmizi təmsil edən Milli Məclisin deputatı, AŞPA-nın Bərabərlik və ayrı-seçkilik komitəsinin üzvü Könül Nurullayeva çıxış edərək iştirakçıların diqqətini qadınlara qarşı törədilən “namus cinayətləri”nə yönəldib. Deputat bunu insan hüquqlarının kobud şəkildə pozulması kimi dəyərləndirib. Qeyd edib ki, bu cür cinayətkarlar öz əməllərinə bəraət qazandırmaq məqsədilə guya ailələrində əxlaq dəyərlərini qorumaq naminə bu addımı atdıqlarını iddia edirlər. Lakin bu cinayətlər, heç şübhəsiz, qadınlara qarşı ayrı-seçkiliyin ən dəhşətli nəticələrindən biridir.

K.Nurullayeva “namus cinayətləri”nin həm kişilərə, həm də qadınlara qarşı törədilməsinə baxmayaraq, qadınların daha çox təhlükə riski altında olduğunu qeyd edib. Belə cinayətlərin əsasən ailələrdə baş verdiyini vurğulayan Milli Məclisin deputatı diqqətə çatdırıb ki, İstanbul Konvensiyası və 1681 saylı Qətnamə qadınlara qarşı “namus cinayətləri”ni pisləsə də, hələ də Avropada bu cür zorakılıq hallarına yol verilməsi, beynəlxalq konvensiyanın tələblərinin kobud şəkildə pozulması faktlarına rast gəlinir və əksər hallarda cinayətlər ailələr tərəfindən gizlədildiyindən və dövlətlərin bu cinayətləri daha az ciddiyə almasına görə ölkələrin statistikaları da dəqiq deyil.

Deputat vəziyyətdən çıxış yolu kimi, ilk növbədə, bu qəbildən olan cinayətlərə qarşı daha sərt və təsirli qanunların qəbul edilməsinin vacibliyini təklif edib. Eyni zamanda, KİV-lərin cəmiyyətə təsir imkanlarını nəzərə alaraq, media etikası və ictimai məlumatlılığın artırılmasına paralel olaraq, hüquq-mühafizə sisteminin səmərəliliyini artırmaq və bu cinayətlərin qarşısının alınması və effektiv təqibi üçün təlimlərin keçirilməsini nəzərdə tutan proqramların qəbul olunmasını məqsədəuyğun hesab edib. Bildirib ki, qurbanları qorumaq və dəstəkləmək üçün müvafiq sosial iş və digər müdafiə mexanizmləri də daxil olmaqla, zərərçəkənlərin kompleks müdafiəsi mexanizmləri mövcud olmalıdır. K.Nurullayevanın fikrincə, “namus” ifadəsinin mühafizəkar cəmiyyətlərdə xüsusi həssaslıqla qarşılanması əslində təhlükənin miqyasını daha da genişləndirir. Odur ki, cinayət əməli heç bir halda “şərəf” və “namus” ifadələri ilə assosiasiya olunmamalıdır.

## Naira Zohrabyan: “Armen Sarkisyan özünü məhvetmə düyməsinə basdı”



“Bütün prezidentliyi dövründə Armen Sarkisyanın Ermənistan və erməni xalqı ilə bağlılığı yalnız pasportunda milliyyətinin göstərilməsi ilə yekunlaşır”. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumatlara istinadən xəbər verir ki, bu fikirləri “Çiçəklənən Ermənistan” fraksiyasının deputatı Naira Zohrabyan bildirib və fikirlərini öz Facebook səhifəsində bir yazıda paylaşıb.

Naira Zohrabyan qeyd edib ki, Armen Sarkisyanın isterik rəhbərlik tərzindən fərqli olduğunu sübut etmək üçün ən azı bir neçə qızıl fürsəti var idi, ancaq Armen Sarkisyan hər dəfə şər niyyətli həmyerlilərindən və səbirsiz ucuz adamlardan fərqlənmək şansını qaçırdı. “Cəmiyyət amansızcasına qaralar və ağlara bölündükdə, qardaşı qardaşa qarşı yönəltməyə başladılar və hökumət hesablaşma səviyyəsinə endirildikdə Armen Sarkisyan ən azından geniş yayılmış mənəvi apokalipsisin qarşısını almağa cəhd edə bilərdi. Amma etmədi və bunun üçün Ermənistan gələcəkdə çox yüksək hesab ödəməli olacaq.

Armen Sarkisyan bütün əxlaqsız yolların ən acınacaqlısını, hər gün ona həvalə olunan vəzifələrdən uzaqlaşan və hər gün onu aşağılayan, uzun müddət ərzində çılpaq İngilis pudinqinə çevrilən bir fıstıq sapı kimi bükülmüş bir qorxaq obrazını seçdi. Dünən “de-yure” Ermənistan prezidenti Armen Sarkisyan başqa bir alçaldıcı ritualdan keçirildi və o, gecə saat 12: 47-də prezidenti konstitusiya dəyişikliklərini imzalamaq hüququndan məhrum edən qanun layihəsini imzalamağa məcbur edildi. Yəni özünü səlahiyyətlərindən məhrum etmək layihəsini imzaladı. Prezident Armen Sarkisyan dünən saat 12: 47-də özünün məhv etməklə bağlı protokol imzaladı və özünü məhv etmə düyməsinə basdı. Ermənistan Respublikasında nəinki de-fakto, həm də artıq de-jure prezident yoxdur”, deyə Naira Zohrabyan fikirlərini açıq-aşkar bildirib.

*İnam Hacıyev*

## Milli Məclisin komitə iclası keçirilib

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin növbəti onlayn iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli gündəliyə birinci oxunuşda 3 məsələ daxil edildiyini söyləyib və həmin qanun layihələrinin parlamentə bir zərfdə təqdim olunduğunu diqqətə çatdırıb.




Qeyd edilib ki, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanuna təklif edilən dəyişikliklər rəqəmsal texnologiyanın inkişafı nəticəsində elektron xidmətlərdən istifadənin daha da genişləndirilməsi məqsədini daşıyır. Həmçinin “Elektron imza və elektron sənəd haqqında” Qanuna uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının elektron sistemindən istifadə zamanı sənədlərin əldə edilməsinin asanlaşdırılmasını nəzərdə tutur. Bunlarla əlaqədar yeni layihədə qanunun 9-cu maddəsinə 9.2-3-cü və 9.2-4-cü maddələr əlavə olunur.

Komitə sədri vurğulayıb ki, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanunda bu dəyişikliklərin edilməsi “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Qanuna da müvafiq dəyişikliklər edilməsi zərurətini yaradır. Beləliklə, qanunvericiliyin uyğunlaşdırılması baxımından “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Qanuna 16.2-1, 16.2-2 və 24-3-cü maddələr əlavə olunur. Həmin maddələr təsis sənədləri ilə bağlı qeydiyyat və digər müraciətlərin (qrant müqavilələri, ianələr üzrə məlumatların təqdim edilməsi və s.) elektron qaydada aparılmasının mümkünlüyünü müəyyənləşdirir, habelə dövlət qeydiyyatının gücləndirilmiş elektron imzadan istifadə etməklə elektron məlumat sistemi vasitəsilə aparılmasını nəzərdə tutur.

Onlayn iclasda gündəlikdəki 3-cü məsələni şərh edən vitse-spiker Fəzail İbrahimli bildirib ki, “Qrant haqqında” Qanunda edilən dəyişiklik də uyğunlaşdırma xarakteri daşıyır, QHT-lərin bağladığı qrant müqavilələrinin qeydə alınmasının elektron məlumat sistemi vasitəsilə həyata keçirilməsi üçün hüquqi əsaslar yaradır. Sonra onlayn iclasda müzakirələr aparılıb. Komitə üzvləri Azər Badamov, Sevinc Fətəliyeva, Malik Həsənov, Anar İsgəndərov, Ceyhun Məmmədov və Cavanşir Paşazadə rəy və təkliflərini bildiriblər. Yekunda gündəlikdəki qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

## “Qarabağ saatı” layihəsinə start verilir

Diasporla İş üzrə Dövlət Komitəsi beynəlxalq ictimaiyyəti və xüsusilə dünya azərbaycanlılarını Qarabağ həqiqətləri ilə bağlı daha dərindən məlumatlandırmaq üçün “Qarabağ saatı” adlı yeni layihəyə başlayır. Layihə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən “Qarabağ Araşdırmalar Mərkəzi” ilə birgə həyata keçiriləcək.

Mərkəz layihənin informasiya təminatını həyata keçirəcək. Layihə çərçivəsində Diaspor TV-də Azərbaycan və ingilis dillərində “Qarabağ saatı” adlı proqram yayımlanacaq, xaricdə yaşayan azərbaycanlı gənclərlə, eyni zamanda xarici mütəxəssislərlə debatlar, videokonfranslar təşkil olunacaq. Layihənin məsləhətçisi və TV proqramının aparıcısı “Qarabağ Araşdırmalar Mərkəzi”nin rəhbəri, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədovdur.

# Adil Əliyev: "Azərbaycan Ordusu Qafqazın ən güclü ordusudur"



Ordu hər bir dövlətin və xalqın təhlükəsizliyinin qarantıdır. Ümummilli lider Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan korpusunun yarandığı gün - 26 iyun Silahlı Qüvvələr Günü elan olunub. Hər bir dövlətin müqəddəratı ordusundan asılıdır. Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan ordusu işğalçı Ermənistanın dərsini vermək iqtidarındadır. Bunu 2016-cı ilin 4 günlük Aprel savaşı da göstərdi. Əhalisi 3 milyondan az olan Ermənistan 4 günlük savaşda 560 hərbçisini itirdi. Bu kiçik Ermənistan üçün əsl fəlakət sayıla bilər. Təsadüfi deyil ki, Aprel savaşından sonra Ermənistan ordusunda generallar arasında həbslər həyata keçirildi, Müdafiə naziri istefaya göndərildi.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib. Adil Əliyev qeyd edib ki, MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələr sırasındadır. Azərbaycanın hərbi büdcəsi Ermənistan büdcəsinin tamamından çoxdur. Bu da düşmən ölkəni çox qorxudur. Müdafiə naziri Zakir Həsənov son müsahibəsində açıq dedi ki, növbəti müharibədə Ermənistan ordusunun itkiləri daha çox olacaq. İşğalçı dövlətin ordusu məğlubiyyətə düçardır. Bu gün Azərbaycan Silahlı Qüvvələri NATO ilə əməkdaşlıq edir. Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif təlimlərdə iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir. Bundan başqa Azərbaycanla Türkiyə arasında strateji müttəfiqlik hərbi sahəyə də sirayət edib. İl ərzində qardaş dövlətlə birgə keçirilən hərbi təlimlər də buna sübutdur.

"Ordumuz qarşısına qoyulan istənilən tapşırığı yüksək peşəkarlıqla yerinə yetirmək iqtidarına malikdir. Prezident İlham Əliyevin göstərdiyi qayğı nəticəsində vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Müasir dünyamızda baş verənlər onu təsdiqləyir ki, güclü ordusu olmayan dövlətlər müstəqil siyasət həyata keçirməkdə çətinlik çəkirlər. Ordusu zəif olan dövlətlərə təsir etmək daha asandır. Bütün diplomatik danışıqların arxasında güclü ordu dayanır", -deyə Sədr müavini vurğulayıb.

O qeyd edib ki, bu gün gənclərimiz böyük həvəslə hərbi xidmətə can atırlar. 2016-cı ilin savaş günlərində minlərlə gəncimiz orduya yazılmağa və düşmənlə döyüşməyə can atırdı. Ermənistan gəncləri isə işğal altındakı torpaqlarımızda zorla qulluq etməmək üçün ölkələrini tərk edirlər. Bunun özü iki ölkənin gəncləri arasındakı fərqi ortaya qoyur.

A.Əliyev deyib: "Azərbaycan Ordusu Qafqazın ən güclü ordusudur. Düşmənin bütün təxribatlarının qarşısı yerindəcə alınır. Ordumuz daim düşməni vahimə içərisində saxlayır. İstənilən zaman ordumuz torpaqlarımızı azad etməyə qadirdir. Bunu cənab Prezident dəfələrlə çıxışında bəyan edib. Düşmən dərk edir ki, onların qarşısında 1990-cı illərdə olan özünümüdafiə dəstələri yox, nizami və müasir silahlarla təmin edilmiş Azərbaycan Ordusu dayanır".

## Azərbaycan və Banqladeş XİN rəhbərləri arasında telefon danışığı olub



Xarici İşlər naziri Elmar Məmmədyarov ilə Banqladeş Xalq Respublikasının Xarici İşlər naziri A.K.Abdul Momen arasında telefon danışığı olub. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib. Söhbət zamanı hazırkı qlobal vəziyyətə toxunan nazirlər COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində ölkələr tərəfindən həyata keçirilən tədbirlər üzrə məlumat mübadiləsi aparıb və bu xüsusda, beynəlxalq həmrəyliyin və qarşılıqlı yardımın vacib olduğunu qeyd ediblər.

Nazirlər ikitərəfli əməkdaşlıq əlaqələri üzrə fikir mübadiləsi apararaq, Azərbaycan və Banqladeş arasındakı siyasi münasibətlərin cari vəziyyətini məmnunluqla qeyd ediblər. Eyni zamanda, ikitərəfli iqtisadi-ticarət münasibətlərini müzakirə edən tərəflər gələcəkdə bu münasibətlərin genişləndirilməsi imkanlarının araşdırılmasının əhəmiyyətini bildiriblər. Tərəflər habelə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələsinə toxunublar və gələcəkdə bu əməkdaşlığın davam etdirilməsinə razılıq ifadə ediblər.

## Azərbaycanda daha 590 nəfər koronavirusa yoluxdu



Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 590 yoluxma faktı qeydə alınıb, 265 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 14 min 305 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 7768 nəfər müalicə olunaraq sağalıb, 174 nəfər vəfat edib. Aktiv xəstə sayı 6363 nəfərdir. Ötən müddət ərzində 441 min 961 test aparılıb. Bugünkü test sayı isə 9103-dür.

## Açıqlandı: İyulun 1-dən Bakı-İstanbul-Bakı istiqaməti üzrə xüsusi reyslər həyata keçiriləcək



Türkiyədə olan Azərbaycan vətəndaşlarının, o cümlədən tələbələrin ölkəyə gəlməsi və müxtəlif şəxsi səbəblərə görə Azərbaycan vətəndaşlarının Türkiyəyə gedişini asanlaşdırmaq üçün 1 iyul tarixindən başlayaraq qarşılıqlı razılıq əsasında həftədə iki dəfə Azərbaycan Hava Yollarının (AZAL), iki dəfə isə Türk Hava Yollarının (THY) Bakı-İstanbul-Bakı və İstanbul-Bakı-İstanbul istiqaməti üzrə xüsusi reysləri həyata keçiriləcək.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, digər ölkələrdə olan və Azərbaycana geri qayıtmaq istəyən vətəndaşlar, o cümlədən tələbələr də İstanbul hava limanının tranzit imkanlarından istifadə edərək bu marşrut üzrə Azərbaycana gələ biləcəklər.

AZAL-ın reysləri həftənin cümə axşamı və şənbə günlərində, THY-nın reysləri isə çərşənbə və cümə günlərində icra olunacaq. Reyslərə aviabilet satışı AZAL (www.azal.az) və THY-nın (www.turkishairlines.com) rəsmi internet səhifələri vasitəsilə həyata keçiriləcək.

## Mixail Qusman Bakıya "Əmək rəşadəti şəhəri" adı verilməsini təklif edib



TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman Bakıya "Əmək rəşadəti şəhəri" adı verilməsini təklif edib. AZƏRTAC xəbər verir ki, bu təkliflə o, Rusiya Tarix Cəmiyyətinin iclasında çıxış edib. M.Qusman xatırladıb ki, Bakı faşizm üzərində qələbəyə böyük töhfələr verib.

M.Qusman qanuna dəyişiklik edilməsi, Rusiyanın hüdudlarından kənarda yerləşən və ümumi qələbəyə töhfələr vermiş şəhərlərə də "Əmək rəşadəti şəhəri" adının təqdim edilməsi təklifini irəli sürüb. Belə şəhərlər sırasında Mixail Qusman Bakı və Daşkəndi nümunə gətirib. O vurğulayıb ki, Şərq cəbhəsini 80 faiz yanacaq-sürtkü materialları ilə Bakı təmin edirdi. Daşkənddə isə 130 hospital fəaliyyət göstərirdi və bir milyondan çox əsgər həmin xəstəxanalarda müalicə olunurdu.

Xatırladaq ki, Rusiya Prezidenti Vladimir Putin "Əmək rəşadəti şəhəri" adının təsis edilməsi barədə Fərmanı bu ilin mart ayında imzalayıb. Bu fəxri ad İkinci Dünya müharibəsi illərində sakinləri arxa cəbhədə durmadan çalışaraq cəbhəni hərbi və mülki məhsullarla təmin edən şəhərlərə verilir.

## Elmar Məmmədyarov ilə Şeyx Abdullah Bin Zayed Əl Nəhyan arasında telefon danışığı olub

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov ilə Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Şeyx Abdullah Bin Zayed Əl Nəhyan arasında telefon danışığı olub. XİN-dən AZƏRTAC-a bildiriblər ki, nazirlər ikitərəfli dostluq və əməkdaşlıq əlaqələri, həmçinin ölkələrimiz arasında müxtəlif sahələrdə münasibətlərin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıblar. Nazirlər qlobal pandemiya ilə bağlı son vəziyyət və iki ölkə tərəfindən COVID-19 epidemiyasının təsirini yumşaltmaq üçün görülən tədbirlərə dair məlumat mübadiləsi aparıblar. Tərəflər yeni növ koronavirus ilə mübarizə üçün qarşılıqlı dəstəyin və beynəlxalq həmrəyliyin vacibliyini bir daha qeyd ediblər. Nazir Elmar Məmmədyarov BƏƏ-nin COVID-19 ilə mübarizə üzrə Azərbaycana verdiyi yardımı yüksək qiymətləndirib. Hər iki nazir müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsi barədə razılığa gəliblər.




## Putin açıqladı: Nasizmə sovet xalqı qalib gəlib



"Nasizmə sovet xalqı qalib gəlib. Onlar Sovet İttifaqının bütün respublikalarından olan ən müxtəlif millətlərə məxsus insanlar idi." Bu sözləri Rusiya Prezidenti Vladimir Putin Böyük Vətən müharibəsində Qələbənin 75 illik yubileyi münasibətilə iyunun 24-də Moskvada keçirilən hərbi paradda çıxışı zamanı söyləyib.

Rusiya Prezidenti deyib ki, həm ön cəbhədə, həm arxa cəbhədə, həm də partizan dəstələrində sovet xalqı birlikdə mərdliklə mübarizə aparıb. "Biz Böyük Vətən müharibəsində həlak olanların ruhu qarşısında baş əyirik... Sovet xalqı Avropanın azadlığı uğrunda əvəzsiz qurbanlar verib və biz bunu heç vaxt unutmamalıyıq", - deyə V.Putin vurğulayıb.

# Vətəndaş məktubları: “Cənab Prezident, inanırıq ki, Sizin müdrik qərarlarınız sayəsində hər çətinlikdən alnıaçıq, üzüağ çıxacağıq”

***Azərbaycan vətəndaşları Prezident İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. Onlar dövlətimizin başçısının diqqət və qayğısından razılıqlarını ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla minnətdarlıq məktublarının daha bir neçəsini təqdim edir.***



Yardımlı rayonundan Milli Qəhrəman anası Şəfiqə Almasova yazır: “Möhtərəm cənab Prezident, Siz öz şərəfli fəaliyyətiniz, xalqımızın yolunda göstərdiyiniz misilsiz fədakarlığınızla artıq çoxdan sübut etmisiniz ki, hər bir azərbaycanlının Prezidentisiniz. Şəhid ailələrinə qayğı və diqqətinizi biz şəhid ailələri çox yüksək qiymətləndiririk. Mən Milli Qəhrəman anası kimi fəxr edirəm ki, Sizin kimi Prezidentimiz var. Sizin tapşırığınızla mənim ailəmə hər cür qayğı göstərilir. Öz canını Vətən yolunda qurban vermiş şəhid ailələri adından Sizə cansağlığı, uzun ömür, gərgin fəaliyyətinizdə yeni böyük uğurlar arzulayıram”.

İkinci qrup əlil, özünüməşğulluq proqramına cəlb olunmuş sahibkar Tərlan Kazımov: “Hörmətli cənab Prezident, Sizin COVID-19 pandemiyasına qarşı mübarizəyə dair çıxışlarınız, gördüyünüz işlər, insanların sağlamlığını hər şeydən vacib bilməyiniz, tibb işçilərinin xidmətlərinə verdiyiniz yüksək qiymət hər bir azərbaycanlı kimi məni də sevindirir. Hazırda pandemiya ilə mübarizədə qazandığımız uğurların hamısı Sizin zəhmətiniz sayəsindədir. Vətəndaşların firavan yaşaması Sizin, eyni zamanda, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın əsas məqsədinizdir. Bizim də məqsədimiz və vətəndaşlıq borcumuz hər zaman Sizin və Mehriban xanımın yanınızda olmaq, vətənimizin gözəlləşməsi, özümüzün və ailəmizin sağlam qalması üçün əlimizdən gələni etməkdir. Sizə səmimi qəlbdən təşəkkür edir, cansağlığı arzu edirəm”.

Laçın rayonundan məcburi köçkün Nüsrət Alməmmədov: “Əziz Prezidentimiz, Siz məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün mühüm işlər görmüsünüz. Respublikamızın müxtəlif şəhər və rayonlarında salınan yaşayış kompleksləri, müasir qəsəbələr, tikilən çoxmənzilli binalar bunun əyani sübutudur. Bu yaşayış komplekslərinin, qəsəbələrin açılış mərasimlərində Sizin şəxsən iştirak etməyiniz, yeni mənzillərə köçən insanlara xeyir-dua verməyiniz bizim üçün çox dəyərlidir. Bizim ailə Laçın rayonundan məcburi köçkün düşdükdən sonra Ağcabədiyə pənah gətirmişdir. O vaxtdan çətin şəraitdə yaşayırdıq. “Taxtakörpü” adlanan ərazidə yeni salınmış 144 mənzilli qəsəbədə bizim ailəyə də hər bir şəraiti olan mənzil verilmişdir. Cənab Prezident, mənzillə təmin olunduğumuz üçün ailəmin adından Sizə minnətdarlığımı bildirirəm. Allah köməyiniz olsun!”.

Bakının Qaradağ rayonunun Ümid qəsəbəsindən Gülxar Allahverdiyeva Laçın rayonundan olan məcburi köçkünlər adından dövlətimizin başçısına minnətdarlıq edərək yazır: “Xalqımızın hörmətli və sevimli Prezidenti, bəzən hər birimizin həyatında yaranmış böhrandan çıxmaq üçün kənar yardımlara ehtiyac duyduğumuz anlar olur. Elə bu son aylar ərzində, çətin tarixi zamanda nələr yaşadığımız məlum məsələdir. İnsanlara qənim kəsilən pandemiya şəraitində Sizin bütün zamanlar üçün öz dəyərini saxlayacaq yüksək insani münasibətiniz, COVID-19 infeksiyasına qarşı müvafiq tədbirləriniz və eləcə də “Evdə qal”, “Biz birlikdə güclüyük!” çağırışlarınız Sizə olan inamımızı daha da möhkəmləndirdi. Gördük və əmin olduq ki, dövlətimizin başçısının vətəndaşlara olan qayğısı, əhalinin sağlamlığı yolunda aparılan işlərə nəzarəti hər zaman yerindədir və tükənməzdir. Hörmətli cənab Prezident, biz bu gün vətəndaş-dövlət münasibətlərində sıx birliyin şahidi oluruq. Dövlətimizin gücünü, nüfuzunu artırdığınıza, xalqımıza, eləcə də məcburi köçkünlərə göstərdiyiniz qayğıkeş münasibətə görə Sizə dərin təşəkkürümüzü bildirir, işlərinizdə uğurlar arzulayırıq. Biz Sizinlə güclüyük!”.

Saatlı rayonunun sakini Pünhan Quliyevin məktubunda deyilir: “Hörmətli cənab Prezident, Sizin apardığınız uğurlu daxili və xarici siyasət sayəsində Azərbaycan biz gənclərin gözü önündə yüksək səviyyədə inkişaf etmişdir. Dövlətimiz Sizin siyasi iradəniz və qabaqcıl səyləriniz nəticəsində COVID-19 pandemiyası şəraitində beynəlxalq aləmdə həmrəyliyin və əməkdaşlığın tərəfdarı olduğunu bir daha nümayiş etdirdi. Biz gənclər bu gün hər bir şəraiti, əmin-amanlıq olan dövlətdə yaşayırıq, heç bir qlobal və beynəlxalq problemi düşünmədən çalışırıq. Çünki bizim Sizin kimi uzaqgörən, müdrik Prezidentimiz var. Möhtərəm cənab Prezident, bundan sonra apardığınız düşünülmüş və məqsədyönlü fəaliyyətinizdə Sizə yeni uğurlar arzulayıram”.

Bakının Səbail rayonundan Əbülfəs Qasımov: “Əziz Prezidentimiz, koronavirusun dünyanı cənginə aldığı dövrdə ölkəmizdə bu bəlaya qarşı gördüyünüz qabaqlayıcı tədbirlərə görə Sizə minnətdarlıq edirəm. Hörmətli cənab Prezident, ölkəmizin gələcəyi naminə gördüyünüz bütün tədbirlərə görə Sizə və Mehriban xanım Əliyevaya təşəkkürümü bildirirəm. Tanrı Sizi qorusun!”.

Mingəçevir şəhərindən Cəfər Quliyev, Sahib Rəsulov, Həsən Mikayılov, Mehriban Süleymanova və Baloğlan Alıyev yazırlar: “Çox hörmətli cənab Prezidentimiz, Biz, Mingəçevir şəhəri “İncilli” adlanan yaşayış massivinin sakinləri Sizə və Mehriban xanıma dərin təşəkkür edirik. Uzun illərdən bəri yolumuzun yararsız vəziyyətdə olması bizə çox çətinliklər yaradırdı. Yayda toz-torpaqdan, payız və qış aylarında isə palçıqdan əziyyət çəkirdik. Özümüzün işə, uşaqlarımızın da məktəbə gedib-gəlməsində problem yaranırdı. Bir neçə gün əvvəl bu yolda təmir işlərinə başlanılması sakinləri hədsiz sevindirib. Eyni zamanda, qeyd etməyi özümüzə borc bilirik ki, Mingəçevirin sanki bir rəmzi olan “Azərbaycan” İstilik Elektrik Stansiyasının Sizin tapşırığınızla yenidənqurma işləri sayəsində bu günün standartlarına cavab verən bir müəssisəyə çevrildiyinin şahidiyik. Bir sözlə şəhərimiz inkişaf edir, insanların güzəranı daha da yaxşılaşır. Hörmətli Prezidentimiz, stansiyada görülən işlər, yolumuzun əsaslı təmiri üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Allah Sizə və Mehriban xanıma uzun ömür, cansağlığı versin!”.

Cəlilabad rayonunun Təzəkənd, Söyüdlü və Muğan kəndlərinin sakinləri adından Mirəziz Salayev, Elməddin Nuralıyev, Azad Adıgözəlov və Rasif Sadiqov yazırlar: “Hörmətli cənab Prezident, pandemiya dövründə vətəndaşlara, eləcə də sahibkarlara və fermerlərə yaratdığınız şəraitə və verdiyiniz dəstəyə görə Sizə öz adımızdan, Cəlilabad rayonunun Təzəkənd, Söyüdlü və Muğan kəndlərinin sakinləri adından minnətdarlığımızı bildiririk. Kənd sakinləri olaraq, Sizin yürütdüyünüz siyasətin müsbət nəticələrini, qayğınızı və dəstəyinizi daim öz üzərimizdə hiss edirik. Dünyanın bir çox ölkələri ilə müqayisədə Azərbaycanda koronavirusa yoluxma və tələfat səviyyəsinin aşağı olması Sizin gərgin əməyinizin nəticəsidir. Kənd sakinləri bu çətin dövrdə yaradılmış şəraitdən bəhrələnərək əkib-becərdikləri kartofu həm daxili, həm də xarici bazarlara çıxara bilmişlər. Bu, bizim üçün çox şey deməkdir. Dualarımız və minnətdarlığımız daim Sizinlədir, cənab Prezident”.

Qəbələ şəhərindən Şirin Muştakov: “Hörmətli cənab Prezident, pandemiya dövründə Sizin tibb işçilərinə göstərdiyiniz diqqət və qayğını hiss edirik. Məni 17 iyun - tibb işçilərinin peşə bayramı münasibətilə səhiyyə sahəsində xid-

# Vətəndaş məktubları: "Cənab Prezident, inanırıq ki, Sizin müdrik qərarlarınız sayəsində hər çətinlikdən alnıaçıq, üzüağ çıxacağıq"

mətlərimə görə "Tərəqqi" medalı ilə təltif etmisiniz. Buna görə Sizə dərin hörmət və minnətdarlığımı bildirirəm. Uca Allah Sizi qorusun!".

Masallı rayonundan Cəlil Nəzərov: "Hörmətli cənab Prezident, mənə "Əməkdar həkim" fəxri adı verdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu təkcə mənə yox, bütün Azərbaycan və Masallı səhiyyəsinə verilən qiymətdir. Söz verirəm ki, gələcəkdə də Azərbaycan xalqına və Sizə sədaqətlə xidmət edəcəyəm".

Salyan rayonunun Çuxanlı kəndindən Natiq Mirzəyev, Muzadil İbrahimov, Rəşad Kərimov, Seymur Hüseyinov və Samir Məlikov yazırlar: "Çox hörmətli cənab Prezident, Sizin yüksək dünyagörüşünüzə, sağlam düşüncənizə, ciddi nəzəri və praktiki təhlil qabiliyyətinizə, böyük siyasi təcrübənizə, dərin təfəkkürünüzə əsaslanan qərarlarınız, xalqımızın sağlamlığının qorunması, təhlükəsizliyinin təmin olunması istiqamətində atdığınız addımlar, qabaqlayıcı və təxirəsalınmaz tədbirlər öz nəticəsini verməkdədir. Ümumbəşəri bəla olan koronavirus pandemiyası ilə mübarizədə dünyanın inkişaf etmiş dövlətlərinin belə aciz qaldığı vəziyyətdən minimum zərərlə çıxmağımızı, son dövrlərdə ölkəmizdə zəruri tibbi vasitələr, avadanlıq və ləvazimatlar ilə təminatın yaxşılaşdırılması, ən müasir tələblərə cavab verən səhiyyə ocaqlarının istifadəyə verilməsi, xaricdə çalışan həkimlərimizin ölkəmizdə gedən proseslərə cəlb edilmələri, xalqın rifahı naminə göstərdiyiniz diqqət və qayğı ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Cənab Prezident, bu çətin dövrdə ölkəmizdə yenidənqurma və abadlıq işlərinin davam etdirilməsi də təqdirəlayiqdir. Bunun təzahürünü öz kəndimizdə də görürük. Kəndimizdə suvarma ilə bağlı heç bir problem yoxdur. Bu da əhalinin əkin-biçin işləri ilə məşğul olmasında ruh yüksəkliyi yaradır. Biz kəndlilərə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkür edirik".

Mingəçevir şəhərindən Mehman Süleymanov, Calal Kərimov, Urfan Rüstəmov və Rövşən Səlimov yazırlar: "Möhtərəm cənab Prezident, biz Mingəçevir şəhərində "Tərəvəzçilik sovxozu" adlanan ərazidə yaşayırıq. Yaşayış vəziyyətimizin yaxşılaşdırılması üçün Sizə müraciət etmişdik. Həmin müraciətdən sonra təbii qaz, içməli su və elektrik enerjisi ilə təminatımız normal vəziyyətə gətirilmiş, yolumuzun bir hissəsi asfaltlanmışdır. Burada yaşayan insanlar görülən işlərdən razı qalmışlar. Odur ki, göstərilən köməyə görə bütün sakinlər adından Sizə öz təşəkkürümüzü bildiririk. Sizə və ailənizə ömürboyu firavan və qayğısız həyat arzulayırıq".

Füzuli rayonundan Paşa Əhmədov: "Hörmətli cənab Prezident, Sizin bu çətin günlərdə vaxtında və düzgün qəbul etdiyiniz qərarlar biz vətəndaşların sağlamlığı üçündür. Siz hər zaman öz vətəndaşınızın sağlamlığını və yaxşı yaşamasını düşünürsünüz. İnanıram ki, biz Sizin müdrik qərarlarınız sayəsində hər bir çətinlikdən alnıaçıq, üzüağ çıxacağıq. Mən bütün xalqımız adından Sizə işlərinizdə yeni uğurlar arzulayıram. Siz bizim güclü liderimizsiniz. Biz Sizinləyik. Tanrı Sizi və ailənizi qorusun!".

Ağcabədi rayonunun Pərioğlular kəndindən Mübariz Bünyatov: "Hörmətli cənab Prezidentimiz, öncə respublikamızın inkişafı, dünyada nüfuzunun artması, sayılıb-seçilməsi istiqamətində apardığınız işlərə, aztəminatlı ailələrə göstərdiyiniz diqqət və qayğıya, müharibə veteranlarına və şəhid ailələrinə, həmçinin bütün xalqımıza göstərdiyiniz dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm. Hazırkı ağır dövrdə ölkəmizin inkişafına əngəl yaradan mənfi hallara, korrupsiya və rüşvətxorluğa qarşı apardığınız amansız mübarizə bütün xalqımız kimi, məni də, bizim ailəmizi də sevindirir, qürurlandırır. Biz Sizinlə fəxr edirik. Fəxr edirik ki, bizim belə humanist, qayğıkeş və mübariz Prezidentimiz var. Biz ağcabədililər ulu öndərimiz Heydər Əliyevin də siyasi xəttini həmişə bəyənib dəstəkləmişik. Hazırda Sizin Ulu Öndərin siyasətini uğurla davam etdirməyiniz qəlbimizi sevinc hissi ilə doldurur. Biz Sizinlə fəxr edirik. Yaxşı ki, varsınız, yaxşı ki, bizim Prezidentimizsiniz. Allahdan Sizə cansağlığı, ailə səadəti və işlərinizdə daha böyük müvəffəqiyyətlər arzulayıraq".

Şirvan şəhərindən İmanverdi İsrafilov: "Hörmətli cənab Prezident, Sizin üçün insanların sağlamlığı həmişə birinci yerdədir. Təsadüfi deyil ki, ÜST-nin Baş direktoru Tedros Adhanom Qebreyesus Sizə ünvanladığı məktubda Azərbaycan hökumətinin COVID-19-a qarşı mübarizəsini yüksək qiymətləndirib, Sizin milli, regional və qlobal səviyyələrdə çoxtərəfli diplomatiyaya və həmrəyliyə dəstəyinizi nümunəvi adlandırıb. Cənab Prezident, Vətənimizin daha gözəl və qüdrətli olması, insanlarımızın daha xoşbəxt və firavan yaşaması Sizin və Azərbaycanın Birinci vitse-prezidenti çox hörmətli Mehriban xanım Əliyevanın gərgin və yorulmaz birgə fəaliyyətinizin əsas məqsədidir. Son illərdə Azərbaycan dövləti Sizin düşünülmüş siyasətiniz və müdrik rəhbərliyiniz sayəsində ümummilli lider Heydər Əliyevin siyasi kursuna sadiq qalaraq davamlı inkişaf edir. Əminik



ki, bu gün yaşadığımız bu mürəkkəb dövr tezliklə sona çatacaq, Vətənimiz yenə də Sizin rəhbərliyinizlə hər sahədə durmadan irəliləyəcək. Sizin "Biz birlikdə güclüyük!" çağırışınız bu gün dillər əzbəridir. Biz isə deyirik: "Biz Sizinlə güclüyük, möhtərəm Prezident". Sizə xoşbəxtlik, gördüyünüz hər işdə böyük uğurlar və yeni-yeni qələbələr arzulayırıq".

Salyan rayonunun Xələc kəndinin sakinləri adından Əlivahid Məmmədov, Təyyar Qasımov, Namik Əlizadə, Dünyamalı Canəliyev və Əzizağa İbrahimov yazırlar: "Əziz Prezidentimiz, ölkəmizdə gedən iqtisadi islahatlar öz bəhrəsini verməkdədir. Kənd təsərrüfatı sahəsinin dirçəldilməsi ölkənin sosial-iqtisadi inkişafına, xüsusən də regionlarda yaşayan insanların məşğulluğunda müstəsna rol oynayır. İndi fermerlər əkin-biçinə daha həvəsli görünürlər. Dövlətin qayğısı sayəsində suvarma suyu təminatı ildən-ilə yaxşılaşır, texnikalar alınır, subsidiyalar ayrılır, gübrələr güzəştli şərtlərlə verilir. Qeyd etmək istəyirik ki, Salyan rayonunun Xələc kəndində üzüm, bostan, tərəvəz, kartof, pambıq, taxıl məhsulları əkilib-becərilir. Məhsuldarlığı da ildən-ilə yüksəltməyə çalışırıq. Cənab Prezident, aqrar sahənin inkişafına verdiyiniz dəstəyə, həmçinin rayonumuzda gedən abadlıq-quruculuq işlərinə görə Sizə minnətdarlığımızı bildiririk. Allah Sizi, ailənizi və xalqımızı qorusun!".

Siyəzən şəhərindən Tamerlan Qurbanov: "Hörmətli cənab Prezident, "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması haqqında imzaladığınız Sərəncam Siyəzən rayon ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirilir. Bir təhsil işçisi, coğrafiya müəllimi kimi hesab edirəm ki, imzaladığınız bu Sərəncam rayonumuzda həm turizmin coğrafiyasını genişləndirəcək, həm də ölkə iqtisadiyyatına öz töhfəsini verəcəkdir. 2015-ci ildə Sizin iştirakınızla açılışı olan "Qalaaltı Hotel & SPA" müasir müalicə-istirahət kompleksinin inşası regionun turizm imkanlarının artırılması baxımından nə qədər mühüm əhəmiyyət daşıdığı və regionumuza gələn turistlərin sayının dəfələrlə artmasına göstərdiyi təsir göz qabağındadır. Əminəm ki, bu Sərəncamın nəticəsi də regionumuzun inkişafına olduqca müsbət təsir göstərəcəkdir. İstər tarixi, istərsə də coğrafi baxımdan mühüm əhəmiyyət kəsb edən "Beşbarmaq dağı" Tarix-Mədəniyyət və Təbiət Qoruğunda aparılacaq işlərə uğurlar arzu edir, bir Siyəzən rayon sakini olaraq Sizə dərin minnətdarlığımı bildirirəm. Yaşasın inamla uğurlara imza atan müstəqil Azərbaycan!".

Balakən rayonunun Tülü kəndindən Taleh Namazov, Elşən Qurbanov, Elmira İsmayılova, Sabir Nəbiyev, Sərxan Yetərov, Gülbəniz Rəşidova, Lətif Alqayev, Mömінət Alagözova, Zamirə Məmmədova, Xəlil Yetərov, Almaz Layıcov, Elmira Yetimova, Şəfiqə Qarayeva, İntizar Namazova, Simuzər Atayeva, Sanur Alqayeva, Zərifə Atayeva, Türkan Hüseynova, Məhəmməd Sabirov, Hicran Atayev və Sevil Puçaxova yazırlar: "Hörmətli cənab Prezident, son aylarda dünyada COVID-19 pandemiyasının yayıldığı bir dövrdə Azərbaycanda da çətin günlər yaşanır. Dövlətimiz Sizin rəhbərliyiniz sayəsində əhalinin sağlamlığının çox ciddi və mütəşəkkil şəkildə qorunması üçün mübarizə aparır. Sizin Sərəncamınız əsasında Balakən rayonundakı Qullar, Tülü və Talalar kəndlərindən keçən yolların asfaltlanması hər üç kəndin sakinlərinin böyük sevincinə və bayram əhval-ruhiyyəsinin yaşanmasına səbəb oldu. Hörmətli cənab Prezident, Siz həmişə xalqımızın çətin və dar günlərində bizim yanımızda olaraq bizə dayaq olmusunuz. Dövlətimizin bu çətin günündə Tülü kəndinin sakinləri üçün belə gözəl şərait yaratdığınıza görə kənd sakinləri adından Sizə dərin minnətdarlığımızı bildirir, Sizə və ailənizə uzun ömür, cansağlığı, bərəkətli və xoşbəxt ömür arzulayırıq. Allah Sizin kölgənizi dövlətimizin üzərindən əskik etməsin. Sizin varlığınız dövlətimizin daha da inkişafı, Dağlıq Qarabağımızın işğaldan azad olunması, xalqımızın daha firavan və xoşbəxt yaşaması deməkdir. Biz, Tülü kənd sakinləri həmişə dövlətimizin və Sizin uğurlu siyasətinizi dəstəkləyirik, hər zaman Siza arxalanırıq. Allah Sizi və ailənizi qorusun!".

Ağdam rayonunun Təzəkənd kəndindən Şövkət Əmirova: "Hörmətli və əziz Prezidentimiz, biz Sizinlə qürur duyuruq. Siz Ulu Öndərin başladığı bütün işləri uğurla davam etdirir, Azərbaycanımızın inkişafı üçün yorulmadan çalışırsınız. Sizin tapşırığınız əsasında bu günlərdə kənd yolumuza asfalt örtük salınmışdır. Yollarımız təmir olunan zaman plana uyğun olaraq yolumuz bir az da genişləndirilmiş, həmçinin yol kənarında səliqəsiz hasarlar sökülüb yenidən çəkilmişdir. Mənim də hasarımın bir hissəsi yola yaxın düşdüyü üçün sökülmüşdü. Yolun çəkilişindən sonra qısa müddət ərzində həyətimin hasarı hörülərək mənə təhvil verildi. Hazırda geniş, rahat yolumuz və səliqəli hasarlarımız var. Buna görə Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm".

# YAP gəncləri kreativliyi və innovativ düşüncə tərzi ilə seçilir

***Yeni Azərbaycan Partiyası bu gün Azərbaycanın həyatında müstəsna rol oynayan, gələcəkdə də bu tarixi missiyanı şərəflə davam etdirməyə qadir, Ulu Öndər Heydər Əliyevin ideyalarından güc alan möhtəşəm bir siyasi təşkilatdır. Azərbaycan milli dövlətçiliyinin möhkəmlənməsində, cəmiyyətin ümumi mənafelərini təmin edən idarəetmə sisteminin formalaşmasında müstəsna rol oynayan Ümummilli Lider Heydər Əliyev Azərbaycanda milli dövlətçilik fəlsəfəsinin və milli mənlik şüurunun formalaşmasının əsasını qoymuşdur.***



Məhz Onun fədakar mübarizəsi sayəsində Azərbaycan xalqı özünün ən ümdə arzularının reallaşmasına nail olmuşdur. Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası yarandığı zamandan şərəfli bir yol keçib və ümumxalq partiyasına çevrilib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qətiyyəti və iradəsi hesabına yaradılan və bu gün istər ölkə daxilində, istərsə də regionda lider partiya olan Yeni Azərbaycan Partiyası yarandığı zamandan həm ölkə daxilində cərəyan edən siyasi proseslərdə, həm də beynəlxalq əlaqələrdə böyük uğurlara imza atıb. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə partiya daha da inkişaf edib və güclənib. YAP, nəinki ölkənin, hətta Cənubi Qafqazın ən böyük siyasi partiyasına çevrilmişdir. Heç şübhəsiz ki, bu nailiyyətlər Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sarsılmaz təməlin və bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin apardığı məqsədyönlü və müdrik siyasətin nəticəsində mümkün olmuşdur. "Dünənin, bu günün və sabahın" partiyası olan Yeni Azərbaycan Partiyası həm də gəncliyin partiyasıdır. Vurğulamaq vacibdir ki, gənclər siyasəti Ulu Öndər Heydər Əliyevin partiya quruculuğu dövründə diqqət mərkəzində olmuş və qısa bir zaman məsafəsində, gənclər YAP-ın ətrafında cəmləşmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə və istedadına inam hissini artırıb. Təqdirəlayiq haldır ki, YAP gəncliyin inkişafına xüsusi diqqət yetirir. Həyata keçirilən bir çox layihələr, gənclərin tədbirlərinə dəstək verilməsi, onlar üçün geniş imkanların yaradılması buna əyani sübutdur. Təbii ki, partiyada gənclərin öz bilik və bacarıqlarının üzə çıxarılması üçün geniş imkanlar yaradılıb.

Gənclərin YAP-ın sıralarında olması bu partiyanın ideyasını dəstəkləmək, Azərbaycan dövlətinin və dövlətçiliyinin keşiyində dayanmaq, bu yolda yorulmadan çalışmaq deməkdir. Bu baxımdan, Yeni Azərbaycan Partiyasının üzvü olmaq gəncləri qürurlandırır. YAP bu gün ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edən minlərlə gənci öz ətrafında birləşdirən mükəmməl qurulmuş siyasi sistemdir. Gənclərin seçdiyi bu partiya ölkəmizin müstəqillik tarixində, ölkəmizdə hüquqi-dövlət quruculuğu sahəsində böyük işlərə imza atmışdır. Qeyd edək ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb həyata keçirildi. Belə ki, Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, fevralın 2-də Azərbaycan Gənclər Gününün elan edilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət-gənclər siyasəti haqqında" Fərman və geniş Fəaliyyət Proqramının təsdiq edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısı idi. Bu, gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaradır, habelə, dövlət orqanlarının diqqətini gəncliyin problemlərinin həllinə yönəldirdi.

Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini qərarları ilə təsdiq edir. YAP sıralarına daxil olmaqla, gənclər həyatlarında ən düzgün qərarlarından birini qəbul edirlər. Bu gün, demək olar ki, YAP-da Azərbaycanın ən intellektual və yüksək səviyyəli gəncləri toplaşıb. Onların fəaliyyəti və özlərini təsdiq etmələri üçün bütün şərait yaradılıb. Gənclərin partiya sıralarına axınının sürətlənməsində Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi dövlət gənclər-siyasəti sahələrində atılan məqsədyönlü addımlar xüsusi əhəmiyyət kəsb edir. Ölkə başçısı tərəfindən həyata keçirilən gənclər siyasəti gənclərin bütün təbəqələrinin hərtərəfli inkişafını və ölkənin ictimai-siyasi həyatında onların yaxından iştirakını təmin edir. Azərbaycan Prezidenti İlham Əliyevin siyasəti nəticəsində, Azərbaycan gəncliyi artıq cəmiyyətin inkişafında ciddi rolu olan fəal sosial təbəqəyə çevrilib. Azərbaycanda dövlət səviyyəsində gənclərlə bağlı bir sıra dövlət proqramları və layihələr həyata keçirilir. Həyata keçirdiyi layihələr çərçivəsində gənclər özlərini təsdiq edirlər və daha da inkişaf edirlər.

Gənclərə olan diqqət və gənclər siyasətinin davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etməkdə növbəti addım oldu. Gənclərə ayrılan bu diqqətin və qayğının nəticəsidir ki, Azərbaycan gəncləri bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər. Eyni zamanda, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında gənclər üçün mühüm istiqamətlər mövcuddur.

Ölkəmizin ən aparıcı siyasi qüvvəsi olan YAP daim maraqlı layihələrlə çıxış edir. Bu da, cəmiyyətimiz tərəfindən müsbət qarşılanır. Çünki bu layihələr, bilavasitə cəmiyyətdən gələn sosial sifarişlərdir. Eyni zamanda, əhalinin müxtəlif təbəqələrinin partiyanın bu fəaliyyətinə dəstək verməsi onun gücünü artıran amillərdən biridir. YAP-ın müxtəlif sahələri özündə ehtiva edən müxtəlif səpkili layihələrində cəmiyyətin bütün təbəqələri əhatə olunub. Ölkəmizin həyatında mühüm və əlamətdar günlərdə, xüsusi bayramlarda YAP tərəfindən həmişə diqqət və qayğıya ehtiyacı olan ailələrə, insanlara yardımlar edilir və köməkliklər göstərilir.

Ölkəmizdə gənclər siyasətinin səmərəliliyini təmin edən mühüm amillərdən biri könüllülük fəaliyyətinə xüsusi diqqət göstərilməsidir. Könüllülük insanları vahid məqsəd ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatlardan biridir. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Dövlət başçısı tərəfindən 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan olunması bunun bariz ifadəsidir. Partiyanın gəncləri də könüllülər hərəkatında fəal iştirak edir. Könüllülər öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə diqqəti cəlb edirlər. Bu gün dünyanı bürüyən pandemiyaya qarşı mübarizə tədbirlərinin gücləndirildiyi bir zamanda könüllülər fəallığı ilə seçilirlər. Könüllülər yaşı 65-dən yuxarı olan tənha yaşlılara kömək olmağı, onlara sosial xidmət göstərməyi, qayğılarını çəkməyi özlərinin vətəndaşlıq borcu hesab edirlər. Belə bir zaman hər kəsdən birlik, həmrəylik çağırışlarına dəstək olmağı tələb edir.

Yeni Azərbaycan Partiyasın Sədri Cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində, Azərbaycan hər bir sahədə böyük inkişaf yolu qət edib. Bütün sahələrdə görülən işlər və qazanılan uğurlar onu göstərir ki, Azərbaycan xalqı düzgün seçim edib. Bu gün ümumxalq partiyasına çevrilən YAP ölkənin ictimai-siyasi proseslərində yaxından iştirak edərək, xalqımızın inam gətirdiyi lider partiyadır. İnkişaf və tərəqqi yolunu tutaraq, bütün fəaliyyət prinsiplərini dövlətə və xalqa xidmət üzərində quran YAP bu gün də həmin ənənəni davam etdirməkdədir.

***Zümrüd BAYRAMOVA***

## Gəncədə yeni "ASAN xidmət" mərkəzi inşa olunacaq




Prezident İlham Əliyev iyunun 24-də "Gəncə şəhərində yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Gəncə şəhərində yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.4-cü yarımbəndində göstərilmiş 5 milyon manat Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılıb.

## BMT açıqladı: Heç bir ölkə koronavirusa təkbaşına qalib gələ bilməyəcək




BMT-nin baş katibi Antoniu Quterreş COVID-19 infeksiyası ilə mübarizədə beynəlxalq koordinasiyanın olmamasını tənqid edib və heç bir ölkənin koronavirusa təkbaşına qalib gələ bilməyəcəyini deyib. AZƏRTAC Associated Press agentliyinə istinadla xəbər verir ki, Antoniu Quterreş ölkələrin koronavirus infeksiyasına qarşı izolyasiyalı fəaliyyət göstərdiyini və beləliklə, vəziyyətin nəzarətdən çıxa biləcəyini bildirib. BMT-nin baş katibi problemin həllini qlobal koordinasiyalı fəaliyyətdə görür. Onun sözlərinə görə, siyasi, iqtisadi və sosial tədbirlərin koordinasiyası COVID-19 pandemiyasının iş yerlərinin itirilməsi, zorakılıq hallarının artması və insan hüquqlarının pozulması kimi nəticələrini yumşaltmağa kömək edəcək. Antoniu Quterreş pandemiyanın əvvəlindən bu yana II Dünya müharibəsindən sonra ən böyük problem kimi gördüyü pandemiyanın həlli üçün beynəlxalq fəaliyyəti birləşdirməyə səy göstərir.

## Baş Prokurorluq: Şirvan Şəhər İcra Hakimiyyətinin vəzifəli şəxsi həbs edilib



Şirvan Şəhər İcra Hakimiyyətinin mənzil təsərrüfatı idarəsinin müdiri Eyyub Gülməmmədovun qanunsuz hərəkətləri barədə vətəndaşın müraciəti əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciət üzrə Baş İdarənin əməkdaşları tərəfindən keçirilmiş təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində Eyyub Gülməmmədov xidməti vəzifəsinin icrası ilə əlaqədar idarənin balansında olan Şirvan şəhəri Nizami küçəsində yerləşən yataqxananın 35 kvadratmetr sahəsi olan iki otaqdan ibarət hissəsini vətəndaşın adına sənədləşdirilməsi müqabilində sonuncudan 3000 manat məbləğində pulu iyunun 22-də özünə məxsus avtomobildə rüşvət kimi alarkən cinayət başında yaxalanıb.

Faktla bağlı Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb. Eyyub Gülməmmədov tərəfindən bu cinayət əməlinin törədilməsinə şübhələr üçün əsaslar müəyyənləşdirildiyindən o, Cinayət Məcəlləsinin həmin maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə dörd ay müddətə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə həmin qanunsuz halların tam, hərtərəfli yoxlanılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Zərifə Quliyeva: "Paşinyan növbəti dəfə İlham Əliyevdən diplomatiya, tarix, hüquq dərsi aldı"

***Bu günlərdə Prezident İlham Əliyevin iştirak etdiyi Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammit Ümumi nəticələri müqayisə etsək, bu sammiti Valday və Münxen zəfərlərinin məntiqi davamı kimi dəyərləndirə bilərik.***



*ZƏRİFƏ QULİYEVA, YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, Nəsimi YAP təşkilatı İdarə heyətinin üzvü, "Modern ailə və inkişaf "İctimai Birliyinin sədri*

Çünki əvvəlki görüşlərdə olduğu kimi, Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində də bir daha Ermənistan dövlətinin işğalçılıq siyasətinin qlobal müstəvidə ifşa olunması ilə yadda qaldı. Bütün bunlar isə, Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş uğurlu diplomatik siyasətinin bariz nəticəsidir. Məhz bu Azərbaycanın bu diplrmatik hücumları qarşısında acizlik nümayiş etdirən Ermənistan iqtidarı sözügedən sammitdə də rüsvayçı məğlubiyyətdən qaça bilmədi.

### Azərbaycan Prezidenti öz həqiqətləri ilə onu ifşa etdi, hətta çaşdırdı və aciz duruma saldı

Bəli, bu keçirilən bütün mötəbər tədbirlərdə aydın şəkildə nümayiş olunmaqdadır. Çünki hər bir uğurun arxasında həqiqətlər, faktlar durur. Deməli, bu görüşdə də nəticə ən böyük həqiqəti ortaya qoydu: artıq erməni saxtakarlığı keçmir və Azərbaycan Prezidentinin hücumçu diplomatiyası dünya erməniliyini darmadağın edir. Və bütün dünya bunun şahidi oldu. Ermənistan baş nazirinin çıxışı və davranışları bir daha göstərdi ki, o, siyasətdə naşı bir adamdır. Hər kəs aydın şəkildə görürdü ki, Paşinyanın populist çıxışı Ermənistandakı vəziyyət nəzərə alınaraq daxili auditoriyaya hesablanıb. O, siyasi və diplomatik bacarığı olmadığı üçün kobud səhvlərə yol verirdi. Əvvəla tədbirdəki çıxışı Paşinyanın dil biliyinin bərbad olduğunu göstərirdi. O, qabaqcadan hazırlanan çıxışını ingilis dilində oxusa da, növbəti fikirlərini erməni dilində ifadə eləməyə çalışdı. Ermənistan baş naziri Sammitdə çıxışı zamanı ingilis dilində kağızdan oxuyarkən beynəlxalq aləmdə qəbul olunan "Naqorniy Karabagh" sözünü işlədir, halbuki erməncə çıxışında "Artsax" sözünü dilə gətirdi.

Lakin görüşdə çıxış edən Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini xatırladıb və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilən bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasının tələb olunduğunu bildirib : "Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır." Gö.ründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyev Paşinyana növbəti dəfə tarix dərsi keçdi. Onun sözlərinə görə, dövlətimizin başçısı Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etdiyini, işğal olunmuş torpaqlarda mülki azərbaycanlılara qarşı etnik təmizləmə apardığını, ermənilərin işğal altındakı torpaqlarımızda mədəni irsimizi məhv etdiklərini, Dağlıq Qarabağda Ermənistanın heç bir tarixi irsinin olmadığını bir daha səsləndirdi.

### Azərbaycan Prezidenti yüzillik erməni yalanını beynəlxalq miqyasda bir daha ifşa etdi, Ermənistan baş nazirini isə yenə də "öz dilindən yandırıb" gülüş hədəfinə çevirdi

Qeyd edək ki, Prezident İlham Əliyev Paşinyanın siyasətdə təsadüfi və uğursuz adam olduğunu, dövlət başçısı kimi yetkinləşmədiyini Aşqabadda MDB liderlərinin qarşısında sübut etmişdi, açıq deyək, onu rəzil duruma salmışdı. Prezident İlham Əliyevin Paşinyana ironiyasına bütün prezidentlər gülmüşdü, yalanlarının ifşasını isə məmnunluqla izləmişdilər...

Şübhəsiz, Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevlə növbəti müzakirəyə sanki bir döyüş kimi hazırlaşmışdı. Amma artıq 26 ildir ki, İlham Əliyevlə döyüşün hansında qaliblə məğlubların yeri dəyişib?!.

Çünki artıq MDB də, Avropa da, ABŞ da tarixin ən qüdrətli Azərbaycanının timsalında Prezident İlham Əliyevi ən böyük inqilabçı, bugünkü müflis, səfil, forpost Ermənistanın nümunəsində isə Paşinyanı böyük siyasi avantürst kimi tanıyır, qəbul edir!..

Prezident İlham Əliyev növbəti dəfə mühüm beynəlxalq platformada Ermənistanın işğalçılıq siyasətini ifşa edib və baş nazir Paşinyanın populist çıxışına tutarlı cavab verib: "Çıxışımda dediklərim beynəlxalq təşkilatların qətnamələrinə əsaslanan tarixi həqiqətdir. Birincisi, bu, hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar".

Sammitdə ən yadda qalan məqam isə, Prezident İlham Əliyevin Paşinyanı sakit olmağı məsləhət görməsidir: "Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim".

Azərbaycan Prezidenti çıxışında, həmçinin vurğuladı ki, ölkəmiz pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar könüllü maliyyə yardımı ayırıb. Eyni zamanda, Azərbaycan 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirir. Bu, Azərbaycanla Ermənistan arasında bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə də dərin uçurumun mövcudluğunu nümayiş etdirən tutarlı faktdır. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı koronavirusla mübarizədə nümunə ölkə adlandırır, Azərbaycanın digər ölkələrə yardımını təqdir edir, Ermənistan isə virusla mübarizə üçün sadəcə pul dilənir.

Bir sözlə, bu keçirilən növbəti Sammitdə də Prezident İlham Əliyev Paşinyana tarix və siyasət dərsi keçdi, erməni yalanlarını ifşa etdi. Və Azərbaycan Prezidentinin Ermənistan baş nazirini növbəti dəfə siyasi iflasa uğratması faktını hətta Ermənistan mətbuatı və ictimaiyyəti də etiraf etmək məcburiyyətindədir.

## Məhəbbət İbrahimova: "Paşinyan Azərbaycan diplomatiyasının qarşısında növbəti dəfə aciz duruma düşdü"




"İyunun 18-i tarixi növbəti yadda qalan bir gündür. Bir sıra mötəbər beynəlxalq tədbirlərdə olduğu kimi, iyunun 18-də keçirilən Şərq Tərəfdaşlığı ölkələrinin Sammitində də Ermənistanın işğalçılıq siyasətinin qlobal müstəvidə ifşası ilə yadda qaldı". Bu fikirləri SİA-ya açıqlamasında YAP Qadınlar Şurasının sədrinin müavini, YAP Nərimanov rayon təşkilatının qadınlar şurasının sədri Məhəbbət İbrahimova deyib.

M.İbrahimova Azərbaycanın öz milli maraqları çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayaraq bildirib ki, bu gün Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin davam və inkişaf etdirilməsi Avropa İttifaqı üçün xüsusi əhəmiyyət daşıyır: "Bu real faktordur ki, Cənubi Qafqaz regionunun güc mərkəzi kimi çıxış edən, mühüm geostrateji üstünlüklərə sahib olan Azərbaycanla əməkdaşlıq siyasi və iqtisadi perspektivlər nöqteyi-nəzərindən önəmli dividendlər vəd edir. Və iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində də Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsidir. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir".

M.İbrahimova Sammitdə Prezident İlham Əliyevin əvvəlki beynəlxalq tədbirlərdə olduğu kimi, bu dəfə də Ermənistan baş nazirinin yalanlarını ifşa edərək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişənin həlli ilə bağlı Azərbaycanın prinsipial mövqeyini, eləcə də, tarixi faktlar və reallıqları qətiyyətlə bəyan edib: "Bununla Azərbaycan Prezidenti İlham Əliyev Paşinyana növbəti dəfə tarix dərsi keçdi. Belə ki, dövlətimizin başçısı Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etdiyini, işğal olunmuş torpaqlarda mülki azərbaycanlılara qarşı etnik təmizləmə apardığını, ermənilərin işğal altındakı torpaqlarımızda mədəni irsimizi məhv etdiklərini bir daha vurğuladı. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır".

"Paşinyanın növbəti dəfə Azərbaycan Prezidenti tərəfindən səsləndirilən tarixi həqiqətlər və təqdim edilən faktlar qarşısında aciz durumda qalması isə maraqlı məqamlardan idi", - deyən M.İbrahimova onu da vurğulayıb ki, Prezident İlham Əliyev çıxışında Ermənistanın dövlət səviyyəsində terrorizmə dəstək olduğunu tutarlı faktlarla sübut etdi. Azərbaycan Prezidenti erməni terrorçusu Karapetyanla bağlı məsələyə tarixi aspektdən yanaşaraq erməni terrorizminin əsl mahiyyətini ortaya qoydu. Və Prezident İlham Əliyevin Dağlıq Qarabağın Azərbaycana məxsus olması və münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna biləcəyinə dair təqdim etdiyi hüquqi bazanın qarşısında Paşinyan tutarlı heç bir arqument nümayiş etdirə bilmədi: "Ermənilər tərəfindən atılan yersiz addımlar və bu cür səylər, şübhəsiz ki, iflasa məhkumdur və əsassız iddialardan ibarət olduğu üçün heç bir nəticə verə bilməz. Nəticə etibarilə, Prezident İlham Əliyev Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu həm tarixi, həm beynəlxalq hüquq, həm də beynəlxalq birliyin mövqeyi kontekstində dünya ictimaiyyətinə bir daha çatdırdı. Bir sözlə, Şərq Tərəfdaşlığı ölkələrinin Sammiti Ermənistanın işğalçılıq siyasətinin qlobal müstəvidə ifşası ilə yadda qaldı".

**RƏFİQƏ HÜSEYNOVA**

## Fransa koronavirus vaksininin kliniki sınaqlarına bu ilin sentyabrında başlayacaq



Fransanın "Sanofi" əczaçılıq şirkəti koronavirus vaksininin kliniki sınaqlarına bu ilin sentyabrında başlamağı planlaşdırır. SİA xəbər verir ki, bu barədə şirkətin açıqlamasında deyilir. Bu vaksin Böyük Britaniyanın GSK şirkəti ilə birgə DNT-nin rekombinasiyası texnologiyası əsasında hazırlanıb. Şirkət bildirir ki, sınaqların uğurla başa çatacağı təqdirdə ildə 1 milyard doza istehsal oluna bilər. Həmin vaksinin 2021-ci ilin ilk yarısında satışa çıxarılması nəzərdə tutulur. "Sanofi", həmçinin "Translate Bio" şirkəti ilə birgə daha bir vaksinin üzərində işləyir. RNT fraqmentinin köçürülməsi üsulu ilə hazırlanan bu vaksinin ilin sonunadək sınaqlardan keçirilməsi planlaşdırılır.

## Ünvanlı sosial yardım alanların sayı 84 mini keçib



Aztəminatlı ailələrə dövlət dəstəyinin gücləndirilməsi tədbirləri çərçivəsində ünvanlı dövlət sosial yardımı proqramının əhatə dairəsi getdikcə genişləndirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həmin yardımı alan ailələrin sayı təkcə iyun ayında 1000-dən çox ailə artaraq, 84 min 100-ə çatıb. Həmin ailələrdə, ümumilikdə, 350 mindən çox ailə üzvü var.

Hər ailəyə düşən yardımın orta aylıq məbləği 225 manatdan çoxdur. Yeni qərarla sosial dəstək tədbirlərindən biri kimi, xüsusi karantin rejimi müddətində ünvanlı dövlət sosial yardımının təyin olunma müddəti bitən aztəminatlı ailələrə də həmin yardımın verilməsi müddəti uzadılıb.

# Azərbaycan təkcə korona deyil, erməni adlı virusa da qalib gəlir

***Koronavirus pandemiyası dünya iqtisadiyyatına ciddi zərər vurdu və bu bəlanın fəsadları özünü göstərməkdədir. Ölkəmiz üçün də təbii ki, mövcud vəziyyət arzuolunan hal deyil və dövlət büdcəsinə, iqtisadiyyata dəyən zərəri təkzib etmək mümkünsüzdür. Doğrudur, bu böhranlı vəziyyət ilk dəfə peyda olmayıb və oxşar vəziyyətlə 1997-1998-ci, 2008-2009-cu və 2014-2016-cı illərdə də rastlaşmışıq. Lakin etiraf edək ki, oxşarlıq olsa da, sadalanan dövrlərdəki hallar bu qədər təsiredici olmayıb və ən təsirlisi də odur ki, ümumiyyətlə, prosesin nə vaxt bitəcəyi bəlli də deyil.***

Heç şübhəsiz ki, belə bir vəziyyət bütün ölkələr üçün zərərli təsirlər vəd edir və biz bu gün dünya iqtisadiyyatında, ticarətində, hətta siyasi müstəvisində də bu zərərli təsirlərin təzahürlərini müşahidə etməkdəyik. Nəinki, iqtisadi, ticari əlaqələr, hətta bir çox rəsmi görüşlərin də təxirə salındığının şahidiyik. Ən yaxşı halda görüşlərin onlayn rejimdə, videokonfrans şəklində keçirildiyi də günün reallığıdır.

Sevindirici haldır ki, virusa çox yaxşı və güclü müqavimət göstərə bildik və hələ də səbrlə, əzmlə, iradə ilə müqavimət göstərməkdəyik. Eləcə də, bu qlobal bəlanın ən həssas dövründə belə dövlətimiz ən ümdə vəzifələrin, işlərin öhdəsindən layiqincə gəldi və bu işlər davam etdirilir. Həyəcan siqnalının ilk anından belə ölkədə vətəndaşların sağlamlığı ön plana keçirildi. Vətəndaşlara, ölkə vətəndaşlarına evdə qalmaları, bir-biri ilə yaxın təmasdan çəkinmələri, nəticədə isə özlərini qorumaları üçün şərait yaradıldı, virusun sürətlə yayınmasının qarşısı alındı. Nəinki, şərait yaradıldı, hətta “evdə qal” kompaniyası ilə insanlarımız, vətəndaşlarımız buna təşviq edildi və bunun öhdəsindən layiqincə gəlindi də. Ona görə layiqincə gəlindi ki, insanların evdə qalmaları üçün vacib şərtlər, lazımi şərait və imkan təmin edildi. Dövlətimiz, təbii ki, Cənab Prezientin rəhbərliyi ilə insanların qayğılarını nəzərə aldı və bu gün də bunun davamlı olduğunun şahidiyik. Ölkə başçısının rəhbərliyi və tapşırıqları ilə vətəndaşlara yardımlar, müxtəlif köməkliklər olundu, dövlətimiz işsiz insanlara birdəfəlik yardımlar ayırdı və bu tədbirlər bu gün də davam etdirilir. Nazirlər Kabinetinin 23 iyun 2020-ci il tarixli qərarı ilə işsiz insanlara 190 manat məbləqində birdəfəlik yardımların verilməsi qərarı bunun əyani sübutu, təsdiqidir. Təkcə birdəfəlik yardımlar deyil, sahibkarlardan tutmuş, krediti olan bank müştərilərinə, hətta kimsəsizlərə qədər hər kəs diqqətdən, qayğıdan kənarda qalmadı. Müxtəlif istiqamətlərdə tədbirlər paketi hazırlandı və dövlət büdcəsindən bu məqsədlə yetərincə vəsait ayrılaraq sosial yönümlü tədbirlərə yönəldildi və bu gün də bu siyasət davam etdirilir. Bir sözlə, koronavirusla mübarizədə qələbələrimiz davamlı, möhkəm və daimidir.

Qeyd olunduğu kimi, bu pandemiya, bu bəla, koronavirus adlı qara buludlar təkcə Azərbaycanın üzərini almayıb və bütün dünya bu paroblem və çətinliklərlə üz-üzədir. Hər bir ölkə mübarizə etmək məcburiyyətindədir. Necə deyərlər, yaşamaq, mövcudluq uğrunda mübarizə, özü də kəskin mübarizə gedir və varlığını qorumaq istəyən hər kəsin belə bu mübarizəyə qatılmaqdan başqa çarəsi yoxdur. Amma etiraf edək ki, heç də bütün ölkələr bu mübarizəyə eyni şəkildə, eyni hazırlıqda, eyni gücdə, eyni potensialla qatılmayıb və nəticələr də bu sadalananlardan birbaşa asılıdır və bunun da çoxdandır ki, şahidiyik. Məsələn, inkişaf etmiş, çox qüdrətli dövlətlərdə, hətta Avropa ölkələrinin bir çoxunda virusun sürətlə yayılmasını, insan ölümlərinin sayının həddən artıq olmasını da müşahidə etdik və şahidi olduq ki, vaxtında görülməyən tədbirlər, insanların sağlamlıqlarının qorunması istiqamətində gecikən, yaxud, atılmayan addımlar belə bir arzuolunmaz nəticələrə gətirib çıxardı. Eləcə də, işsizlərin, ehtiyaclı insanların tələbatlarının ödənilməməsi səbəbində bir çox ölkələrdə sosial problemlərin ortaya çıxdığı da sirr deyil. Ən inkişaf etmiş ölkələrdə müxtəlif səbəblərə görə, ələlxüsus işsizlik problemi, maddi durumun acınacaqlı olmasına görə, səhiyyə ilə əlaqədar vətəndaşların narazılıqlarının da şahidi olduq. Çox sevindirici və təqdirəlayiq haldır ki, Azərbaycanda belə hallara rast gəlinmədi və səbəb də hökumətimizin vətəndaşları nəzərə alması, ölkə başçısının insanlara olan diqqət və qayğısıdır ki, bunun təkcə biz özümüz yox, bütün dünya ictimaiyyəti şahididir. Əbəs yerə deyil ki, istər Ümumdünya Səhiyyə Təşkilatı, istər bir sıra beynəlxalq qurumlar, istərsə də ayrı-ayrı ölkələrin dövlət və hökumət başları ölkəmizin pandemiya ilə mübarizə tədbirlərini yüksək qiymətləndirib və bu gün də qiymətləndirməkdədir. Bu da bizim qələbələrimiz sırasındır.

Ölkəmizdə bu pandemiya dövründə görülən tədbirləri sadalamaqla bitməz və səhiyyə sahəsindən tutmuş maliyyə məsələlərinə, sosial rifahın yaxşılaşdırılmasına, yardımların reallaşdırılmasına qədər hər bir məsələyə həssaslıqla yanaşılır.




Təkcə, Nazirlər Kabineti Yanında Operativ Qərargahın yaradılması belə məsələyə nə dərəcədə həssaslıqla yanaşıldığını təsdiq edir. Belə bir qərargahın yaradılması faktına heç də bütün dünya ölkələrində rast gəlinmir və ölkəmizdə bununla bağlı görülən işlər məhz bu baxımdan diqqətdən yayına bilməz.

Müqaisə üçün diqqətə çatdırmaq tam yerinə düşərdi ki, dünyaya özünü demokratik, azad, vətəndaşlarının qayğısına qalan, vətənsevər kimi təqdim etməyə, daha doğrusu sırımağa çalışan Ermənistan ölkəmizlə bu istiqamətdə də müqaisəyə belə gəlməzdir. İndi bu ölkədə virusla bağlı, pandemiya ilə əlaqədar çox acınacaqlı vəziyyət hökm sürür. Təbii ki, bu acınacaqlı vəziyyətə səbəb ölkədə virusla mübarizənin düzgün təşkil olunmamasıdır. Nəinki, düzgün təşkil olunmaması, ümumiyyətlə, vəziyyətin hesaba belə alınmamasıdır. Xüsusilə qeyd etmək lazımdır ki, nə qədər özlərini başqa şəkildə təqdim etməyə çalışsalar da, bütün bunların kökündə həmin o işğalçı ölkənin vətəndaşlarına qayğı ilə yanaşmaması, insanlarına dəyər verməməsi durur və bunu artıq ermənilər ört-basdır edə bilməzlər. Daim işğalçılıq siyasəti ilə tanınan və haqsızlıqlar, ədalətsizliklərlə idarə olunan, faşizmi, terroru təbliğ edən bir ölkənin durumu müzakirə mövzusu deyil. Sadəcə, müqaisə üçün diqqətə çatdırmaq yerinə düşərdi ki, heç də populist, daxili auditoriyaya hesablanan mövqeyi, dünya ictimaiyyətini aldatmağa yönələn siyasəti ilə bu ölkə nə daxili auditoriyanı, nə virusun özünü, nə də dünya ictimaiyyətini aldada bilmədi. Əksinə, virusa, koronavirusa yoluxma, ölüm halları həddini aşdı, vəziyyət nəzarətdən çıxdı, ölkə vətəndaşları acınacaqlı durumda qaldı, dünya ictimaiyyəti də etiraf etsə də, etməsə də manipulyatorların, avantüristlərin, populistlərin, yalançıların yalanlarının bir daha şahidi oldu. Amma bütün bunların fonunda bütün dünya Azərbaycanın apardığı doğru, düzgün siyasətin, məqsədli mübarizənin, vətəndaşlarının layiqincə qayğısına qalmasının şahidi olmaqla, ölkə başçısının apardığı siyasətin mərkəzində vətəndaş amilinin dayanmasına bir daha əmin oldu. Qısası, dünya ictimaiyyəti işğalçı, terrorçu, nəticədə, yalançı bir ölkə ilə, Ermənistanla, humanizm, insanpərvərlik siyasəti yürüdən, sosial layihələrə üstünlük verən, vədlərinə əməl edən, demokratiyanı, insan azadlıqlarını, onların rifahının yaxşılaşdırılmasını hər şeydən üstün tutan bir ölkənin, Azərbaycanın fərqini bir daha anlamaq məcburiyyətində qaldı.

Ölkələrin bir çoxu pandemiya ilə mübarizə istiqamətində hazırda müxtəlif yardımlar alır, məsələn, Ermənistan kimi ölkə də bu yardımlara sadəcə göz dikib və yardımlardan asılı vəziyyətə düşüb. Amma, Azərbaycan nəinki bu pandemiya şəraitində öz daxili paroblemlərini öz daxili potensialı, gücü hesabına həll edir, eyni zamanda digər ölkələrə, eləcə də Ümumdünya Səhiyyə Təşkilatına da yardımlarını, vəsaitlərini əsirgəmir. Ən böyük fərq də elə budur. İndi Azərbaycana əzələ nümayiş etdirməyə cəhd edən, bir zamanlar işğal etdikləri Dağlıq Qarabağ torpaqlarının müdafiəsi məsələsi ilə bağlı guya hazırlıqlı olduqlarını göstərməyə çalışan və hər dəfə də gülünc duruma düşən Ermənistan ölkəmizlə fərqini, potensial imkanlar baxımından çox aşağı olduğunu çox yaxşı başa düşür və bunu həmin ölkə ictimaiyyətinin böyük əksəriyyəti də etiraf edir. Ermənistana məxsus mətbuat səhifələrinə nəzər saldıqda bir daha şahidi oluruq ki, müxtəlif siyasi partiyalar, ayrı-ayrı qurumlar, bir zamanlar hakimiyyəti təmsil edən tanınmış siyasətçilər, hətta indiki hakimiyyət daxilində olan qüvvələr belə öz acınacaqlı vəziyyətlərini etiraf edir, öz hakimiyyətlərini tənqid edir və həyəcan təbili çalırlar. Çünki, yaxşı başa düşürlər ki, bu ölkə çox ağır duruma, uçuruma sürüklənir və yaxın zamanda tarixdən silinmək qorxusu ilə üz-üzədir. Eləcə də, çox yaxşı anlayırlar ki, daim düşmən mövqe nümayiş etdirdikləri, hər fürsət düşdükdə həmlə etdikləri, özlərinə rəqib bildikləri Azərbaycanla müqaisəyə belə gəlməz durumdadırlar. Yaxşı başa düşürlər ki, Azərbaycan, ancaq sözdə və populist çıxışlarda şişirdilən Ermənistandan dəfələrlə güclü, dəfələrlə qüdrətlidir. Bu isə ermənilərin hər biri üçün ölümdən də betər həqiqətlərdir ki, onlar bu həqiqətlərlə üz-üzə dayanmaq məcburiyyətindədirlər.

Bir növ, koronavirus nəinki saf-çürük etdi, hətta bütün dünya ictimaiyyətini də sanki, aydın şəkildə görməyə, tanımağa, görüb-tanıdığını etiraf etməyə dəvət etdi. Pandemiya virusla, yalnız mikraskopla görünə bilən bir zərrə ilə mübarizədə aciz Ermənistanın dünya miqyaslı qlobal layihələrə imza atan, onları reallaşdıran, bütün sahələrdə özünü doğruldan, hətta indiki çətin durumda belə sərhəddən kənara yardımlarını belə əsirgəməyən Azərbaycanla müqaisəyə gəlməz olduğunu bir daha aşkara çıxardı, isbatladı. Açığı, koronavirus hələ indi bütün dünyanı silkələsə də, erməni virusları, daha doğrusu hay viruslar uzun zamandır yer kürrəsini xəstə təxəyyülləri ilə murdarlamaqda idilər və onlar indi bundan məhrum olurlar. Onlara bu məhrumiyyətləri yaşadan, özlərini öz yalanlarının qurbanına çevirən, uğurları, qələbləri, potensialı, mübarizə əzmi, qüdrəti ilə gözlərini çıxaran isə Azərbaycan dövləti, onun uzaqgörən rəhbəri, Prezidentidir. Bir az daha dəqiq desək, pandemiya vəziyyətində öz uğurları, nailiyyətləti, öz qüdrəti ilə Azərbaycan təkcə korona deyil, erməni adlı virusa da qalib gəlir.

***İnam Hacıyev***



İLHAM

# Cahil insan demokratiyanı anarxiya kimi başa düşür

***Demokratiya deyilən anlayış ağır, həm də qəliz məsələdir. Ağırdır ona görə ki, mənası “xalq hakimiyyəti” olan demokratiyanı təmin etmək bəzi hakimiyyətlər və xalqlar üçün çətindir. Çünki, demokratiya hakimiyyətin xalq ruhunda formalaşdırılmasını, bütün siyasi partiyalara münbit şəraitin və imkanların yaradılmasını, xalqın özünü siyasi baxımdan dərk etməsini, dövlətlə xalqı bir-birinə bağlamasını və mədəni vəhdət təşkil etməsini, siyasi düşüncə, siyasi və hüquqi statusun sərbəst və azad şəkildə tənzimlənməsini, dövlət və cəmiyyəti, hakimiyyəti yaratmaq və hakimiyyətdə təmsil olunmaq üçün haqlar müəyyən etməyi tələb edir.***

Qəlizdir ona görə ki, demokratiya anlayışını hərə bir cür qələmə verib, özü üçün mızıldanır. Hərdəndə, demokratiyanın sərhədlərini bir neçə kilometr aşaraq ağzı köpüklənə-köpüklənə elə şeylər danışıb, fikirlər səsləndirir ki, baxan deyər, bunun uzaq qohumunun ermənilərlə qohumluğu var. Hətta prinsepə durub, səthidə olsa araşdırma aparsan məlum olar ki, ağzı göyçəklik edən sosial şəbəkə “fəalı”nın və ya internet tv “ qəhrəmanı” nın hansısa qaranlıq dairələrlə əlaqələi mövcuddur. Bu kimi şübhələri xaricdəki “söyüş müxalifəti”nin üzvlərindən olan Tural Sadıqlının Məhəmməd Mirzəliyə “80 min avro almısan, mənə isə 300 avro verirsən, tfu sənin sifətinə”deməsi doğruldur. Bununlada həm də, məlum olur ki, bu kimi işbazların ölkəmiz haqqında şər və böhtanlar səsləndirmələrinin arxasında maddi maraqlarının təmin olması və söyüşlər söydükləri ölkələrdə oturum izni almaq istəkləri dayanır.

Azərbaycanda elə şəxslər var ki, anormal əməlləri və sərsəm hərəkətləri ilə bəzən xaricdəki “söyüş müxalifəti”nə meydan oxuyurlar. Birdə görürsən ki, facebook-da biri canlı yayım edir. Telefonun ekranı qarşısında dayanan, gənc qız, saçına, üz-gözünə sığal gəzdirir. Səndə baxırsan ki, bu canı yanmış nə danışacaq, nə deyəcək. Qəşəng-gözəl xanım isə, səni intizarda saxlayır, danışmır, eləcə susur. Sona qədərdə belə davam edir, axırda, səbr kasası dolanlar qızın ünvanına bir-iki yağlı söyüş söyüb, keçir digər səhfəyə. Başqa birisi dədəsinin qəbrini canlı yayımda göstərir, şərhlər verir, xatirələrini bölüşür. Digəri yaşadığı evinin dam örtüyünü necə vurmasını sosial şəbəkə istifadəçilərinə göstərməyə çalışır. Canlı yayımda, yemək bişirən, həyətyanı sahədə yer belləyib, ağacları budayan, mer-meyvəni yığan, hündür mərtəbəli yaşayış binasının üstündən sevdiyi qıza öz sevgisini çatdırmağa çalışanlarda az deyil. Gəl indi bunlara müdaxilə et və ya yanlış yolda olduqlarını başa salmağa çalış. Həngamə qopacaq, səni demokratiyaya zidd addımlar atmaqda, insan hüquq və azadlıqlarının müdafiəsi haqqında beynəlxalq qanunları pozmaqda günahlandıracaqlar. Hay çəkəcəklər xaricdəki və daxildəki, ağzı göyçəklərə ki, onların pozulmaqda olan hüquqlarının bərpa olunmasına yardımçı olsunlar. Beləliklə, şəbəkə yaranacaq və başlayacaqlar hay-küy salmağa. Sən də yol göstərməyə və məsləhət verməyə görə, peşman olacaqsan. Bəlkədə əsəbləşəcəksən, deyəcəksən ki, ay...

Bəli, demokratiya vacibdir. Ancaq dövlət olmadan demokratiya ola bilməz. Dövlət demokratiyanı yaradan, qoruyan və təmin edən sistemdir. Dövlət öz idarəçilik funksiyasını demokratiya ilə yerinə yetirir. Bu baxımdan hakimiyyətlərin möhkəmliyi və xalq arasında mövqelərinin təmin olunması üçün demokratiyanın bərqərar olması vacibdir. Demokratiya mövcuddursa, deməli o cəmiyyətlərdə insan hüquq və azadlıqlarıda tam şəkildə təmin olunur. Amerikalı politoloq Robert Alan Dah demokratiyanın insan hüquq və azadlıqları ilə əlaqəli olduğunu və biri digərini tanmamladığını bildirir: “Demokratiya öz vətəndaşları üçün qeyri-demokratik sistemlərin verədiyi və heç vaxt verə bilməyəcəyi hüquq və azadlıqlara zəmanət verir. Demokratiya öz vətəndaşları üçün digər istənilən siyasi sistemə verə biləcəyindən daha geniş dairədə şəxsi azadlıqları təmin edir. Demokratiya insanlara öz təməl mənafelərini müdafiə etmək imkanı verir “.

Tam qətiyyətlə və əminliklə demək olar ki, Azərbaycanda hüquqi demokratik dövlət formalaşıb. Ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi yüksək səviyyədə təmin olunur. Bütün ölkə vətəndaşları dinindən, milli mənsubiyyətindən, siyasi düşüncəsindən asılı olmayaraq hüquq bərabərliyi, etik və dini bərabərlik şəraitində yaşayırlar. Bununla bağlı Azərbaycan dövlətinin qurucusu və memarı, Ulu Öndərimiz demişdir: “Respublikamızda hüquqi dövlət qurulması, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir”.

Bir sözlə, ölkəmizdə demokratiya var, insan hüquq və azadlıqlarıda ən yüksək səviyyədə təmin olunur. Yetər ki, sərhədlər aşılmasın, dəyərlər pozulmasın. Cahil insan o şəxsdir ki, demokratiyanı anarxiya kimi başa düşür. Kimsə, cahil olduğunu göstərmək istəyirsə, buyursun, canlı yayımlar açıqdır.

# Əli Kərimlini məhkəmənin sərt qərarı islah edə bilər

***Müxalifət düşərgəsində təmsil olunan, ancaq konstruktiv mövqeləri ilə seçilən bir neçə partiya sədri milli və dövlətçilik maraqlarına qarşı şər və böhtanlar səsləndirən Sevinc Osmanqızı ilə Əli Kərimliyə qarşı cinayət işinin qaldırılması çağırışları ilə çıxış edirlər. Sual yaranır, bu çağırışların reallığa çevrilməsi nə dərəcədə mümkündür və sizcə, məhkəmə olarsa bundan digər müxalif partiya sədrləri də nəticə çıxara bilərlərmi? "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında deyib.***



Bildirib ki, konstruktiv siyasi partiyaların bu çağırışını alqışlamaq gərəkdir: "Bu fakt onu deməyə əsas verir ki, ölkəmizdə artıq real müxaliflik anlayışı formalaşmaqdadır. Bu da bizi sevindirir. Təkcə Sevinc Osmanqızı və Əli Kərimli deyil, onlar kimi antidövlət fəaliyyət göstərən digərləri də məhkəməyə cəlb olunmalı və qanun qarşısında cavab verməlidirlər. Həm də bellərinə qarşı qanunun ən sərt üzü göstərilməlidir. Sizin də dediyiniz kimi, bu, ilk növbədə digər müxalif düşərgə nümayəndələrinin lazımi nəticə çıxarmaları, onların öz fəaliyyətlərini sivil, qanunauyğun qurmalarını təmin edə bilər, həm də, ümumiyyətlə ölkəmizdə iqtidar-müxalifət münasibətlərinin sivil formaya gətirilməsində mühüm rol oynaya bilər".

"Hər vəclə Əli Kərimli sosial şəbəkələr vasitəsi ilə Azərbaycanın beynəlxalq imicini ləkələməyə çalışır və xüsusilə, koronavirus dövründə təxribatlar törətməyə cəhd edir. Təxribatçının məhkəməyə cəlb edilməsi ədalətli bir qərar olmazmı" sualına cavab olaraq, T.Novruzov bildirdi ki, əslində bu addım çoxdan atılmalı idi: "İllərdir ki, Əli Kərimli öz fəaliyyəti ilə həm qanunları pozur, həm də dünyada ölkəmizin imicinə xələl gətirmək üçün dəridən-qabıqdan çıxır. Koronovirus dövründə isə bu fəaliyyətinə moratorium qoymaq əvəzinə bir az da gücləndirib. Baxın, Əlinin və onun kimilərin sosial şəbəkələrdə yaydıqları video-görüntülərdə Azərbaycanın bu bəşəri bəlaya qarşı gördüyü qətiyyətli tədbirləri bütün dünya nümunə göstərdiyi halda, bunlar az qala xalqı inandırmağa çalışırlar ki, bu bəlanı Azərbaycana indiki iqtidar gətirib. Gülməli deyilmi? Və yaxud, bəzi çıxışlarında məsələyə elə münasibət bildirirlər ki, adamın onların ağlına şübhəsi yaranır. Məsələn, onların dediklərindən, pafosla xalqa üz tutub bağırmalarından belə çıxır ki, iqtidar hər kəsi bir-bir tutub ağzına maska bağlamalıdır, yaxud hər kəsin yanın kəsdirib iki-üç saatdan bir əllərini yumalı, dizenfeksiya etməlidir. Vallah ya bunlar dəlidi, ya da bu milləti axmaq yerinə qoymaq istəyirlər. Amma ölkə vətəndaşları 90-cı illərin əvvəllərindəki kimi qaragüruh deyil, kimin kim olduğunu da bilir, ağızdan çıxan belə məntiqsiz fikirlərin də fərqindədir".

***Gülyana***

# Fazil Mustafa Bəxriyar Hacıyevin Əli Kərimlinin nökəri olduğunu iddia etdi

## BQP sədri: "Şəxsimə qarşı çirkin kampaniyanın başında Əli Kərimlinin durduğunu statusunda etiraf etdi"

***Bəxtiyar Hacıyevin zaman-zaman radikal müxalifət düşərgəsinin və xarici dairələrin sifarişlərini həyata keçirməsi barədə faktlar kifayət qədərdir. Lakin daha bir məsələ ondadır ki, dövlətçilik maraqlarına qarşı çıxan bu adam özünü aydan arı, sudan-suru kimi göstərməklə anti-Azərbaycan xarakterli şəbəkələrlə iş birliyini gizlətməyə çalışır. Məsələn, polisə qarşı başladılan və nəticəsiz qalan təxribatçı əməllər zamanı onun da bu məsələdə canfəşanlığı əbəs deyildi. Polisin fəaliyyətinə dəstək göstərənləri az qala "düşmən" elan edən bu adam hətta onlara qarşı təhqir və hədyanlarını da gizlətmir.***

SİA xəbər verir ki, bu arada, millət vəkili, müxalifətin Böyük Quruluş Partiyasının (BQP) sədri Fazil Mustafanın da polisə dəstəyindən sonra ona qarşı həqarətlər və təhdidlər yağdıran B.Hacıyevin eyni zamanda AXCP sədri Əli Kərimlidən sifariş aldığı da məlum olub. Belə ki, bu barədə elə deputatın özü mətbuata açıqlamasında deyib. Lakin buna qədər iş o yerə çatıb ki, F.Mustafa B.Hacıyevdən hüquq-mühafizə orqanlarına şikayət edib. Partiya sədri eyni zamanda B.Hacıyevi vətən xaini olmaqda ittiham edir. Hətta onun cinsi problemini qabardaraq, hərbi xidmətə getməkdən yayındığını da açıqlayıb. "Şəxsimə qarşı çirkin kampaniyanın başında Əli Kərimlinin durduğunu statusunda etiraf etdi. Xaricdən qohumları vasitəsilə əxlaqsız kampaniyaya da özünün start verdiyi şübhəsizdir. Buradakı trolları vasitəsilə də yalandan adımıza sözlər uyduraraq sosial şəbəkədə söyüş kampaniyası aparanlara qarşı ən sərt formada mübarizəmiz davam edəcək. Bizim üçün fərq etməz, kimliyindən asılı olmayaraq bu millətin haqqını qarşımıza çıxan bütün yaramazların qarşısında müdafiə edəcəyik. Hakimiyyətə müxalif olan bir qrupun əslində dövlətə qarşı düşmən münasibət sərgilədiyi göz qabağındadır. Bunlara başqa ölkələrin dini qruplarının da dəstək verdiyi üzə çıxdı. Ajiotajları fiaskoya uğrayıb".



### Deputat, qarşı tərəfin cəhdlərinin puç olduğunu bildirib: "Dövlətə qarşı iğtişaş motivinə çevirə bilmədilər"

BQP sədri AXCP sədrinin əlaltısına çevrilmiş B.Hacıyevin əlinə düşən hər imkandan təxribatçılıq, araqarışdıranlıq və qaragüruhçuluq əməlləri törətməsinə işarə edərək deyib ki, polislər cəzalandırılandan sonra zərərçəkmişlərin özlərini qarışdırıcılıq üçün alətə çevirmələrinə yol verməməsi bunları əsəbləşdirib. "Dağıstan məsələsini də dövlətə qarşı iğtişaş motivinə çevirə bilmədilər. İndi də koronavirusun yaratdığı çətinlikləri bəhanə edərək yeni dalğanın baş verməsini gözləyirlər. Bu cür metodlarla Azərbaycan dövlətini sarsıtmanın yolverilməz olduğunu bir daha vurğulayaraq, bu ölkənin inqilabsız, təlatümsüz demokratikləşməsi üçün çalışmalarımız davam edəcək. Əvvəlcə bu koronavirus bəlasını atladaq, intizama əməl edək, ardınca hər kəs öz siyasi davasını sivil yolla aparmağa çalışar", deyə müxalifətçi deputat bildirib.

### Fazil Mustafa sürprizlər vəd edir: "Bu bir milli davadır, bu küyə gedənlərə, öz dövlətinin çökməsini arzulayanlara qarşı hələ xeyli sürprizlərim olacaq"

Deputatın bu qalmaqalla bağlı son statusu isə bu cürdür: "Səhifələrə diqqət yetirin, ayrı-ayrı fikirlərimi kontekstdən çıxarıb paylaşanlar, yaxud kampaniyanın içində yer alanlar: fərarilər, milli şuraçılar, qaragüruhçular, farsın nökərləri, sərdarlar, kəramətlər, əli əliyevlər, ağasiflər, qumlar, tozlar - daha kimlər, nələr bir-birinə lojistik dəstək verərək eyni fitin səsi ilə üzərimizə gəlmişlər. Azərbaycan şairi Xətai yaxşı demiş: "Afərin ol başə ki, min başə bir baş oynadır". Diqqət yetirin, bu uca millətə, bu böyük xalqa təhqir sayılacaq bircə cümləmi tapıb çıxara bilmədilər. Yalandan quraşdırırlar, alınmır. Ayrı-ayrı adamlara ünvanlanan sərt və həm də təhqirlərə cavab sözlərimi o üzünə, bu üzünə çevirsələr də yenə bir şeylər tapa bilmədilər. Bilməyəcəklər də. Çünki bunların topasına bu xalqın, millətin dəyərlərindən dərs keçərəm. Məntiqdən xeyli zəifdirlər, böhtanı, şantajı öyrəniblər, onu da səviyyəli aparmağa ağılları yetərli deyil. Hər bir sözümün arxasındayam, söylədiyim hər bir fikir də ancaq millətimin faydasınadır. Karantin dövründə bəzi ifadələrim həqiqətən sərtdir, ancaq bunlar da intizamlı davranmamız üçün vacib olduğuna görə söylənmişdir. Haqlı mövqedə olanda min dənə yararsız başı bir yerə yığıb futbol topuna çevirirsən. Dostlar möhkəm olun, bu bir milli davadır, bu küyə gedənlərə, öz dövlətinin çökməsini arzulayanlara qarşı hələ xeyli sürprizlərim olacaq".

Göründüyü kimi, F.Mustafa sürprizlərinin də olacağını anons edib və buradan həm də belə nəticə çıxarmaq olar ki, həmin sürprzilər istər Ə.Kərimlinin, istər B.Hacıyevin, istərsə də "Milli Şura" adlanan ölü qurumdakı siyasətbazların kəsərli ifşalarıdır. Hər halda, hadisələr də buna doğru getməkdədir...

***Rövşən RƏSULOV***

# Bakı şəhər sakinindən bir kiloqramdan çox heroin götürülüb



Daxili işlər orqanlarının əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini qətiyyətlə davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini A.Məmmədov Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında Nəsimi rayonu ərazisində keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılıb. Şəxsi axtarış zamanı ondan 5 qrama yaxın heroin aşkar edilib. A.Məmmədovun yaşadığı mənzildən isə 1 kiloqramdan artıq heroin, 269 qrama yaxın metamfetamin, 395 qram marixuana və bir tərəzi götürülüb. Faktla bağlı araşdırma aparılır.

# Beyləqanda "Mercedes" su kanalına düşüb, bir nəfər ölüb

Beyləqanda ağır yol-nəqliyyat hadisəsi baş verib. Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin 112 - qaynar telefon xəttinə Beyləqan rayonunun Birinci Şahsevən kəndi ərazisində "Mercedes" markalı minik avtomobilinin su kanalına düşməsi barədə məlumat daxil olub. Hadisə yerinə cəlb olunan Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq xilasetmə qüvvələrinin səyi nəticəsində avtomobil su kanalından çıxarılıb. Avtomobildə aşkarlanan və şəxsiyyəti məlum olmayan kişi meyiti aidiyyəti üzrə təhvil verilib. Hadisə ilə bağlı müvafiq qurumlar tərəfindən araşdırma aparılır.



# Çörəyi dizinin üstündə olanlar

*Hafiz Hacıyev: "Əli İnsanov çaşıb, başından yekə hərəkətlər edir"*

***Son zamanlar keçmiş səhiyyə naziri Əli İnsanovun səsləndirdiyi bəyanatları və özünü əsl "siyasətçi" adlandırması müxalifət düşərgəsində hiddətlə qarşılanıb. Müasir Müsavat Partiyasınnı sədri Hafiz Hacıyev Əli İnsanovun "çörəyi dizinin üstündə olan ermənipərəstlər kimi belə tərbiyəsiz danışması"na təəccüb etmədiyini bildirib: "Bu o Əli İnsanovdur ki, ölkə vətəndaşlarının yaddaşında regionçu, korrupsioner, jurnalistlərə qarşı tərbiyəsiz hərəkətlər edən və ən nəhayət, Ulu Öndər Heydər Əliyevin siyasi kursuna xəyanət edən birisi kimi qalıb və qalmaqdadır. Hətta Ulu Öndərin qurduğu dövlətə qarşı çıxmasını, ona xain mövqe tutmasını şərh edənlər Əli İnsanovu çörəyi dizinin üstündə olan adam kimi də qınayırlar".***



H.Hacıyev Prezident İlham Əliyevin humanistliyindən yararlanaraq azadlığa çıxan Əli İnsanov dərhal buqələmun kimi rəngini dəyişdiyini, özünü "azadlıq aşiqi və ana müxalifət" kimi təqdim etdiyini bildirərək deyib ki, Əli İnsanov Azərbaycanda 4 müxalifət partiyasının - Müsavat, AXCP, REAL və HƏP olduğunu iddia etməsini əxlaqsızlıq adlandırıb: "Görünür, bu ermənipərəst Əli İnsanov çaşıb. İndi qocalıb, qocalan insanın ağlı gedir. Onun danışdıqları xülyadı. O, heç də narahat olmasın. Özü də bu gün ölkənin hakimiyyətdə olan prezidenti var, o, çox yüksək səviyyədə dövləti idarə edir və bu idarəçilikdə də müəyyən irəliləyişlər var. Başqa hakimiyyət haqqında danışmaq artıq mənəviyyatsızlıq və düşüncəsizlikdir. Əli İnsanov başından çox yekə hərəkətlər edir. Ona görə də dedikləri mənasız bir şeydir. Əgər lazım olarsa, Əli İnsanovu bir aya, hətta 10 günə koalisiya qurmaq istədiyi qüvvələri siyasi cəhətdən məhv edib pis günə salarıq. Sadəcə ağsaqqaldır, istəmirik ki, 3-5 illik ömrü qalıb, onu da geri salaq".

## İnsanov niyə yalan danışır?

H.Hacıyev onu da bildirib ki, Əli İnsanov özü kimi düşünməyənləri adam saymayan, yaşamaq haqqı tanımayan idi: "Əli İnsanov tabeliyindəkiləri əzmək, adamlara qarşı qeyri-insani davranış, müxalif və müstəqil fikirliləri parlament tribunasından təhqir eləmək, azad media anlayışına ironiya eləməklə məşğul olub. Və demokratik Qərb də, Amerika da bu hökuməti uzun illər məhz Əli İnsanov kimilərdən xilas olmağa, korrupsiya, məmur özbaşınalığı, azad mediaya qeyri-etik münasibət göstərənlərə qarşı mübarizə aparmağa çağırıb. Əli İnsanov kimi korrupsioner, dosyesi qaranlıq birini müdafiə edən hansı Qərbdi, çox maraqlıdı? Aldığım informasiyaya görə, bu illər ərzində heç bir Qərb və Amerika institutundan Əli İnsanovun azadlığı ilə bağlı bir müraciət belə daxil olmayıb. Bu illər ərzində bir Qərb institutu belə Əli İnsanovu həbsdən azad etməyə çağırmayıb. Belə olan halda bu avantüranın altında nə dayanır? Əli İnsanovu aldadıblar, ya Əli İnsanov yalan danışır, cəmiyyəti aldadır? Əli İnsanovun minnətdar olacağı bir ünvan var, o da humanist, həm də demokrat İlham Əliyev. Əli İnsanovun azadlığına səbəb onun və onun kimilərin 2005-ci ildə indiki sürətlə davam etməsinə imkan vermədikləri islahatların indi baş tutmasıdır. O islahatlar da ona görə baş tutub ki, Prezident son 16 ildə zərrə-zərrə Əli İnsanov kimi hər şeyin cəza mexanizmi ilə, sərt üslubla həll olunacağını deyənləri təmizləyib, iradə nümayiş etdirib, Əli İnsanov kimilərdən fərqli olaraq xalqa güvənib, xalqa arxalanıb. Əli İnsanov buna görə bu gün azadlıqdadır. Hökuməti də, cəmiyyəti də insanov kimilərdən xilas edən düşüncəyə və Prezidentə minnətdar olsun!".

Bütün hallarda Əli İnsanov nə müxalifətə, nə də öz ətrafına bundan sonra da xeyri dəyməyəcək. Çünki simasızların, çörəyi dizinin üstündə olanların etibarı və ləyaqəti sıfra düşür. Sıfırların dəyəri isə elə sıfırdır...

## "Necə deyərlər, Əli İnsanov xəyanətkardır, satqındır"

Bu yerdə Yeni Azərbaycan Partiyasının Sədr müavini - icra katibi, Baş nazirin müavini Əli Əhmədovun "Facebook" səhifəsində yazdığı fikirləri bir daha təqdim etmək istərdim: "Əli İnsanovun müsahibələri onun siması və insani keyfiyyətləri haqqında tam təsəvvür yaradır: yalan, riyakarlıq, xəyanət. Onun ümummilli lider Heydər Əliyev yoluna xəyanəti artıq çoxdan bəllidir. Keçmiş nazir indi separatçı erməni ideoloqu kimi özünü təqdim və təsdiq etməyə çalışır. Bu isə milli xəyanətdən başqa bir şey deyildir. Erməni separatçılarının ideoloji tezis kimi uydurduğu, guya ermənilərin Azərbaycanda mənəvi-iqtisalarının qeyri-mümkün olması haqqında əsassız şüarın Əli İnsanov tərəfindən dəstəklənməsinə ayrı cür ad vermək mümkün deyil. Görünür, Azərbaycan xalqının dəstəyini qazanmaq xülyasının boşa çıxmasından sonra o, ermənilərin, Qərbdəki erməni lobbisinin dəstəyinə arxalanmaq fikrinə düşüb. Hələ nazir olarkən İrəvana səfəri zamanı ermənilərlə qol qaldırıb oynaması haqqında vaxtilə ağızdolusu danışması yada düşür. Deməli, heç nə təsadüfən baş vermir. Hər şeyin bir səbəbi, bir izahı var".

Beləliklə, xalqa izah etməyə ehtiyac yoxdur. Çünki bütün bunlar Azərbaycan xalqının gözü qarşısında baş verib və bizim cəmiyyətin ictimai yaddaşı əsla qısa deyil. Ona görə də adı ictimai yaddaşda korrupsiya ilə assosiasiya olunan bir şəxsin siyasətə qayıtması mümkün deyil.

***Rəfiqə HÜSEYNOVA***



RƏFİQƏ

## Satqın və quldurların əsl simaları...

***Doğrusu, son günlər özünü "müxalifət" adlandıran satqın və quldurların sosial şəbəkələrdə heç bir dövlət rəhbərinin etmədikləri ölkəmizin Prezidentinin etdikləri bu nailiyyətlərə şər-böhtan yağdırdıqlarına bir-bir diqqət yetirdikdə ağızdolusu LƏNƏTLƏYİRƏM, LƏNƏTLƏYİRƏM ona görə ki, arxivin zibilliklərində eşələnlər özünü "siasətçi", "lider" adlandıranlar YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzovun dediyi kimi: "Azərbaycan xalqı çox haqlı olaraq, bu şəxslərin üstündən vaxtında xətt çəkib və tarixin arxivinə, zibilliyinə yollayıb".***

Deyir haqq nazilər, amma üzülməz. Bəli bu gün Azərbaycanın tarixinə qara ləkə kimi həkk olunan AXC-Müsavat cütlüyünün bir illik hakimiyyətləri və müxalifətdə olduqları 27 illik ərzində əməlləri, etdikləri cinayətlər unudulmur. Və xalq tərəfindən 2003-cü ildən arxivin zibilliklərinə tulladılan AXC-Müsavat hakimiyyəti dövründə özbaşınalıq, korrupsiya, talançılıq, rüşvətxorluğu da unudulmur. Prezidenti İlham Əliyevin Sumqayıt və Bakı Dövlət Universitetinin 100 illik yubileyindəki çıxışlarında fikirləri, ritorikası, səsləndirdiyi qətiyyətli çağırışları açıq-aydın şəkildə bir daha AXC-Müsavat hakimiyyətinin xəyanətkar simasını, anti-demokratik mahiyyətini ifşa etdi.

Bəli, ölkə Prezidenti tamamilə haqlıdır: "Tarix unudulmur və yaxın tariximizin canlı şahidi olan insanlar hələ həyatdadırlar".

Və bu gün bu cinayətkarların "Milli Şura" deyilən əcinələr və böhtanlar yuvası olan qurumda birləşərək keçirilən səviyyəsiz yığıncaqları da bir daha onların əsil simalarını nümayiş etdirir. Və ən böyük dərdləri də nəyin bahasına olursa-olsun xalqın "dəstəyini" qazanmaq. Bu yerdə yaxşı deyilib: "Ac toyuq yuxusunda darı görər". Və bu viruslar hələ də andamır ki, koronavirus hələ Çində epidemiya halında olanda, yəni pandemiyaya çevrilməyəndə hər bir vətəndaşın prezidenti İlham Əliyev artıq bu təhlükəni gördü və buna artıq fevral ayından hazırlıq apardı. Və problem mərhələ-mərhələ vətəndaşları bu virusla mübarizəyə hazırlamaq üçün, yazıçı Yunus Oğuzu dediyi kimi "yumşaq təzyiq siyasət" apardı və bunu da xalq alqışladı. Nəticəsi nə olud? Ümumdünya Səhiyyə Təşkilatının rəyinə görə bu epidemiyaya tutulan və itkilərinin az olmasına görə birinci yerdə olduğu bildirildi. Bax, budur LİDER və XALQIN PREZİDENTİ olmaq. Budur DÖVLƏT-PREZİDENT- XALQ faktoru birliyinin bariz mücəssəməsi. Çünki bütün çətin məqamlarda Prezident İlham Əliyev həmişə xalqının, hər bir vətnədaşının yanında olub, bütün mümkün önləyici tədbirlərin dərhal reallaşdırılması üçün göstərişlərini verib. Ən əsas isə, karantin rejiminin elan olunmasından başlayaraq vətəndaşların sağlamlıqlarının mühafizəsi yönündə atılan addımlar, həmçinin sosial təminat və ərzaq təhlükəsizliyinin qorunub-saxlanılması, bolluq təminatı, qiymətlərin artırılmaması, karantin rejimində qalan vətəndaşların əmək haqlarının ödənilməsi, sosial ehtiyacları olan insanlara birdəfəlik ödənişlərin verilməsi, təqaüdlərin ödənişi, sosial qayğıya ehtiyacı olan yaşlıların diqqətdə saxlanılması, xarici ölkələrdə qalan vətəndaşlarımızın ölkəyə geri gətirilməsi və s. kimi faktlar LİDER-XALQ birliyinin nəticəsidir.

Ancaq "Milli Şura"da başdan-ayağa kimi çirkaba bulaşmış satqınlar iyrəncdir danışıqları xalq tərəfindən daha çox lənətlənirlər. Çünki bu siyasi quldur və Vətən xainlərindən, üzüdönüklərdən və yolunu azanlardan daha adam olmaz. Dediyim odur ki, milçək murdar olmasa da, ürək bulandırır. Belələri Azərbaycan dövlətinin qüdrətlənməsinə, dünyada söz sahibinə çevrilməsinə qarşı çıxış edən aşkar düşmənlərimiz - ermənilərin nökərləridirlər və lazım olan zaman çoxdan çatıb. Həmin zaman ki, belə xainlər barədə ciddi ölçülər götürülsün!

Bu yerdə ADP sədri Sərdar Cəlaloğlunun dediyi fikirlər yada düşür: "Kəssək oturub daş üçün ağlayır". Bəli, budur həqiqət. Azərbaycan iqtidarı dövlətin, millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan Əli Kərimli və onun kimi anti-milli ünsürlər barəsində sərt ölçü götürməli, cəmiyyətdən təcrid edilmələrini vaxtıdır.

## AXCP-nin axurunda...

Çox gülüncdür və gülünc olduğu qədər də düşündürücüdür, qəribədir ki, Əli Kərimli hər il mərhum Elçibəyin doğum günündə eyni pafosu, eyni ifadələri və boğazdan yuxarı səsləndirdiyi kəlmələri ilə sadəcə mənzərə yaratmağa çalışıb. Yeri gəlmişkən, məgər onun ətrafında var-gəl edənlər də bilmirlərmi ki, AXCP-nin daxilində "Yurd" qruplaşması yaradıb, rəhmətlik Elçibəyin sağına da, soluna da balta vuran şəxs məhz elə həmin Əli Kərimli olub? Elçibəyi söyən, aşağılayan, olmazın təhqirləri, böhtanları, şərləri özünə yaxın mətbuat vasitələri ilə ictimailəşdirən də Əli Kərimli olmayımbı? Nəhayət, bu gün illərdir ki, sədri olduğu və bundan sonra da sədrlik kreslosunu kimsəyə verməyəcəyi bəlli olan Əli Kərimli əslində xəyanətkarlığı, xəbisliyi və hərisliyi ilə mövcud AXCP-ni sözün əsl mənasında işğal etməyibmi? İndi haradan qaynaqlandı onun Elçibəy sevgisi? Haradan çıxdı "böyük bəy" sevası?

"Böyük bəy" deyən kreslo işğalçısının arada yadına salmaq gərəkdir ki, hazırkı dövrə qədər onun aldatdığı, yalan danışdığı, toruna saldığı onlarla insan qapını çöldən və eyni zamanda üzünə çırpıb-gediblər. Və gedənərin hər biri də eyni ittihamları, eyni fikirləri ilə AXCP-nin sədrini haqlı olaraq hədəfə alıblar. O isə susub, çünki danışacağı halda partiyadaxili paxırlarının daha çox açılacağından ehtiyat edib. Uzağı, trolları vasitəsi ilə onu hədəfə alanları söydürüb, axı bu onun köhnə peşəsidir - söydürmək, təhqir etdirmək, şər-böhtan atdırmaq və s.

**Atı-atın yanına bağlasan...**

Ancaq bir el məsəli də var ki, atı-atın yanına bağlasan həmərəng olmasa da, həmxasiyyət olar. Məsələn, əgər bu gün Cəmil Həsənli "Milli Şura"nın sədridirsə, eyni zamanda Əli Kərimlinin böyür-başında atlanıb-düşürsə, demək ki, onunla həmxasiyyətdir - yalançı, böhtançı, basıb-bağlayan. Halbuki, 2010-cu ildə parlamentə mandat qazanmadıqdan sonra Cəmil Həsənli Əli Kərimlinin yanına bağlandı, həmin mandata görə tüpürdüyü qaragüruh cameəyə gerdi döndü və həmxasiyyət oldu. Buna qədər isə iqtidarın ən çox təbliğatçısı idi, hətta tom-tom kitablar yazır, TV-lərdə də çıxışlar edirdi, özü də necə!

Ya da götürək Gültəkin Hacıbəylini. O da uzun illərdir ki, mandan sevdasına mübtəla olaraq özünü AXCP-nin axurunda tapmış oldu, bağlandı Əli Kərimli ilə Cəmil Həsənlinin yanına. Hətta elə möhkəm bağlandı ki, onlar bir dəfə siyasi kişnərti səsləri çıxarırdılarsa, Gültəkin bunu ikiqat artıq edirdi. Beləliklə, bir müddət orda-burda həömxasiyyətlilik etməklə gəlib-çıxıblar bu zamana.

Amma gəlin-görək, AXCP-"Milli Şura"nın müştərək axurundan çıxanlar necə ediblər? Misal üçün, Eldəniz Quliyev, Rafiq Manaflı yenə də əvvəlki kimi ola bilərlərmi? Əlbəttə ki, yox. Çünki onlar necə deyərlər, iplərini qırıbqaçmağa müyəssər oldular. Ona görə də, artıq Əli Kərimli və cəbhəçi axurunun digər təmsilçiləri ilə həmxasiyyət deyillər.

**Elçibəyin onun barəsində dediyi tarixi kəlamı xatırlatmaq istərdim - Əli Kərimli Azərbaycan xalqının düşmənidir!**

Qayıdaq Əli Kərimlinin "böyük bəy" sevdasına. İndi bu adam utanmadan-qızarmadan bəytərifi edir, Elçibəyi özünə "müəllim" hesab etdiyini pafosla bəyanlayır. Əgər belədirsə, demək o bir zamanlar rəhmətlik Elçibəyə ünvanladığı olmazın təhqirləri özü də aid edə bilər. Demir ki, müəllimi olub? Müəllim necədirsə, tələbə də elə olar da deyilənə görə. Amma bilənlər-bilir ki, Əli Kərimli mərhum Elçibəyi sözün əsl mənasında çərlədib, həyatına qıyandan sonra onu özünə "müəllim" hesab edib. Elçibəyin siyasi-ictimai dairələrdəki nüfuzundan istifadə etməklə. Ona görə də, indi yadına düşüb ki, hər il bu vaxt bəyin doğum günündə onun adından həyasızcasına istifadə edib xal toplasın. Axı o həm də blogerdir, sosial şəbəkələr blogeri...

Sonda isə, elə Elçibəyin onun barəsində dediyi tarixi kəlamı xatırlatmaq istərdim - Əli Kərimli Azərbaycan xalqının düşmənidir!

***Rövşən NURƏDDİNOĞLU***

# Cənubi Qafqazda türk mənşəli toponimlərin dəyişdirilməsi

***Cənubi Qafqazda qədim türklərə, oğuz və qıpçak boylarına məxsus toponimlərin yaranmasından min illərlə zaman keçir. Azərbaycan, Gürcüstan və indiki Ermənistan ərazisində on minlərlə toponim məhz tarixin qədim qatlarında formalaşmışdır. Qədim türklər yaşadıqları ərazinin coğrafi relyefi, tarixi şəxsiyyətlərinin və tayfaların adları adlandırmışlar.***

Bu gün Ermənistan Respublikası adlanan dövlət əsasən tarixi Azərbaycan torpağı olan İrəvan xanlığının ərazisində yaradılmışdır. 1827-ci ildə İrəvan və Naxçıvan xanlıqlarının Rusiya tərəfindən işğalından sonra yaradılan yeni inzibati-ərazi vahidində yəni - "Erməni vilayəti"nin ərazisinə daxil edilən 1111 kənddən yalnız 62-də ermənilər yaşayırdı. Onlar da 1828-ci ilədək buraya köçürülmüş ermənilər idi. Yeri gəlmişkən, göstərilən 62 kəndin ancaq 14-nün adı erməni mənşəli idi.

Bir xalqın müəyyən ərazidə əsrlər, minilliklər boyu formalaşmış toponimlər sistemini kökündən dəyişdirmək həmin xalqın tarixi-coğrafi ərazidəki izlərinin silinməsinə xidmət edir. Xəritəçilik baxımından bu, asan məsələ olmasa da, Ermənistan Respublikasında azərbaycanlılara məxsus toponimlərin dəyişdirilməsi rəsmi dövlət siyasətinin tərkib hissəsi olmuşdur.

Rusiyanın 1827-ci ildə İrəvan xanlığını işğalından başlamış, 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında Ermənistan Respublikası yarananadək ötən müddət ərzində həmin ərazidə yalnız üç azərbaycanlı yaşayış məntəqəsinin adları dəyişdirilmişdi. İşğaldan sonra İrəvan şəhəri 1828-ci ildə Erivan adlandırılmışdır. Rusiya çarı I Nikolayın 1837-ci ildə Gümrüyə gəlməsindən sonra şəhərin adı dəyişdirilərək çarın arvadı Aleksandra Feodorovnanın şərəfinə Aleksandropol adlandırılmışdır. 1828-1829-cu illər rus-türk müharibəsindən sonra ermənilər kütləvi surətdə Türkiyənin Bəyazid paşalığının ərazisindən Göycə gölünün ətrafında məskunlaşdırılmışdı. 1850-ci ildə İrəvan quberniyası yaradılan zaman Kəvər yaşayış məntəqəsinin adı dəyişdirilərək Novo-Bayazet adlandırılmış və eyniadlı qəza mərkəzinə çevrilmişdir. Bu üç yaşayış məntəqəsinin adları istisna olmaqla, çar Rusiyası dövründə buraxılan inzibati və topoqrafik xəritələrdə, statistik məlumatlarda yaşayış məntəqələrinin türkmənşəli adları və digər toponimlər olduğu kimi saxlanılırdı.

Ermənistanda türk mənşəli toponimlərin erməniləşdirmə kampaniyasına hələ daşnak hökuməti zamanında başlanılmışdır. 1919-cu ilin dekabrında Ermənistan hökumətinin qərarı ilə daxili işlər nazirliyinin nəzdində kəndlərin, şəhərlərin, çaylarınvə dağların adlarının dəyişdirilməsi üçün xüsusi komissiya yaradılmışdı.

1920-ci ildə Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonar da türkmənşəli toponimlərin erməniləşdirilməsi prosesi davam etdirilmişdir. 1935-ci ilədək Ermənistanda 200-ə yaxın yaşayış məntəqəsinin (oykonimlərin) adları dəyişdirilmişdir. 1935-ci ildən etibarən isə yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları əsasında həyata keçirilmişdir.

Sovet hakimiyyəti dövründə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları əsasında 1935, 1938, 1939, 1940,1946, 1947, 1948, 1949, 1950, 1957, 1962, 1968, 1969, 1977,1978, 1980-ci illərdə addəyişmə əməliyyatları həyata keçirilmişdir. Ermənistanda daşnakların hakimiyyəti dövründən 1935-ci ilədək 195 yaşayış məntəqəsinin adları dəyişdirilmişdir. 1988-ci ilin avqust ayınadək - yəni azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiya olunmalarınadək indiki Ermənistan ərazisində 521 türk mənşəli yaşayış məskənlərinin adları dəyişdirilmişdir.

Sovet hakimiyyəti illərində Ermənistanda türkmənşəli toponimlərin dəyişdirilməsi prosesi ilə yanaşı, bir neçə kəndi bir təsərrüfatda birləşdirmək (təmərküzləşdirmək) yolu ilə azərbaycanlı kəndlərinin adları Ermənistanın yaşayış məntəqələrinin siyahısından silinmişdir. Məsələn, Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 5 fevral 1978-ci il fərmanı ilə Aşağı Kilsə (Quqark)), Ağtala (Kamo (Kəvər)), Rəhimabad (Masis (Zəngibasar)), Qamışlı (Vardenis (Basarkeçər)) kəndlərinin adları məntəqələrin siyahısından çıxarılmışdır.

Ümumiyyətlə, 1918-1987-ci illərdə indiki Ermənistan ərazisində 254 azərbaycanlı yaşayış məntəqəsi müxtəlif yollarla (əhalisi soyqırıma məruz qoyulmaqla, deportasiya edilməklə və s.) yaşayış məntəqələri siyahısından silinmişdir. Bu kəndlərin böyük əksəriyyəti Ermənistanda azərbaycanlılara qarşı 1918-1920-ci illər soyqırımı və1948-1953-cü illər deportasiyasından sonra xaraba qalmışdır.

Tarixi yer adlarının dəyişdirilməsi də diskriminasiyanın bir növü, özü də çox eybəcər növüdür. Əsası hələ 40-50-ci illərdə qoyulan türk mənşəli qədim toponimlərin gürcüləşdirilməsinin əsas məqsədi yerli əhalini uzaq tarixi keçmişi ilə birləşdirən bağları qırmaq, sakinlərə gəlmə olduqlarını təlqin etmək və milli-etnik kökə malik mənəvi abidələri dağıtmaq idi.

Addəyişmə prosesi Bolnisi rayonundan başladı. Qoçulu-Çapala, Cəfərli-Samtredo, Mığırlı-Vanati, Imirhəsən-Savaneti, Aşağı Qoşakilsə-Kvemo Arkvani, Muğanlı-Farizi, Kolagir-Surtava, Daşlıqullar-Muxrani, Həsənxocalı-Xidisquri, Əsmələr-Mskneti... və s. adlandırıldı. Altı ay ərzində əhalisinin 100%-i türklər olan 35 kəndin adı dəyişdirildi. Bu kəndlər 1000-10.000 nəfər arasında əhali yaşayan böyük kəndlərdir. Gürcüstanda rəsmi dövlət qəzeti olan "Sakartvelos Respublika" 10 iyun 1992-ci il tarixli sayında türklərin tarixinə və mənəviyyatına vurulan bu zərbəni "Tarixi həqiqətin zəfəri" adlandırırdı. Bolnisi rayonunun türk əhalisinin, eləcə də onların respublikada təmsil olunduqları ictimai-siyasi təşkilatları rayon və respublika rəhbərlərinə çoxsaylı müraciətləri, etiraz aksiyaları nəticəsiz qaldı. Rayon sovetinin özbaşına çıxardığı bu ədalətsiz qərar yuxarı təşkilatlar tərəfindən ləğv edilmədi. Gürcüstan türklərin "Qeyrət" xalq hərəkatının Bolnisi Rayon şöbəsinin respublikanın dövlət başçısına kəndlərin əvvəlki adının qaytarılması ilə bağlı göndərdiyi teleqramda deyilirdi: "...Xalqlarımızın çoxəsrlik dostluq və qonşuluq münasibətlərini qoruyub saxlamaq naminə bu məsələyə xüsusi diqqət və qayğı ilə yanaşmağınızı, ədalətin bərpa edilməsinə köməklik göstərməyinizi xahiş edirik. Kəndlərin adları bizim tariximizdir, özgürlüyümüzdür, namusumuzdur, ləyaqətimizdir. Bu adları itirmək tariximizi, ləyaqətimizi itirmək demək olar. Bu addəyişmə kampaniyası təkcə borçalılara deyil, bütün xalqımıza təhqirdir... Bu qeyd-şərtsiz Ermənistan variantıdır. Orada da soydaşlarımız qovulmazdan əvvəl onların obalarının dədə-baba adları dəyişdirilmişdi...

Addəyişmə prosesi Bolnisi rayonundan başladı. Qoçulu-Çapala, Cəfərli-Samtredo, Mığırlı-Vanati, Imirhəsən-Savaneti, Aşağı Qoşakilsə-Kvemo Arkvani, Muğanlı-Farizi, Kolagir-Surtava, Daşlıqullar-Muxrani, Həsənxocalı-Xidisquri, Əsmələr-Mskneti... və s. adlandırıldı. Altı ay ərzində əhalisinin 100%-i türklər olan 35 kəndin adı dəyişdirildi. Bu kəndlər 1000-10.000 nəfər arasında əhali yaşayan böyük kəndlərdir. Gürcüstanda rəsmi dövlət qəzeti olan "Sakartvelos Respublika" 10 iyun 1992-ci il tarixli sayında türklərin tarixinə və mənəviyyatına vurulan bu zərbəni "Tarixi həqiqətin zəfəri" adlandırırdı. Bolnisi rayonunun türk əhalisinin, eləcə də onların respublikada təmsil olunduqları ictimai-siyasi təşkilatları rayon və respublika rəhbərlərinə çoxsaylı müraciətləri, etiraz aksiyaları nəticəsiz qaldı. Rayon sovetinin özbaşına çıxardığı bu ədalətsiz qərar yuxarı təşkilatlar tərəfindən ləğv edilmədi

Kənd məclislərin addəyişməyə etirazlarını ifadə edən qərarlarına Gürcüstan rəhbərliyi məhəl qoymur. Artıq çayların, dağların da adlarını dəyişdirməyə başlayıblar. Gülməli bir vəziyyət yaranıb. Xalq arasında "Xram" adlandırılan çayı Bolnisidə "Kçiya" adlandırırlar. Marneuli, Dmanisi və Qardabanidə isə çayın əvvəlki adı qalır".

Əhalinin çoxsaylı etirazlarına baxmayaraq rəsmi Tiflis iddia edirdi ki, addəyişmə məsələsinə türklər tolerant yanaşır. Gənc gürcü tədqiqatçısı M.Komaxiya yazır: "E.Şevardandzenin tərəfdarları hesab edirdilər ki, 35 Azərbaycan kəndinin adının dəyişdirilməsi əhalini narahat etmədi. Hazırda kənd, yaxud da çay iki adlıdır. Biri rəsmidir (gürcücədir), ikinci azərbaycancadır və yerli əhali gündəlik həyatında öz dilindəki adlardan istifadə edir ki, bu da öz növbəsində müəyyən problemlər yaradır". Həmin yazıda müəllif belə vəziyyətin Gürcüstandaxili inteqrasiyaya mənfi təsir göstərdiyini də etiraf edir: "Yerli əhali hesab edir ki, hakimiyyət bu yolla onların tarixi yaddaşını məhv etməyə cəhd göstərir. Bu da azərbaycanlıların inteqrasiyasına neqativ təsir göstərir".

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

25 iyun

## Maska taxmaq koronavirusdan nə qədər qoruyur?



**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) maska ilə bağlı tövsiyələrinə dəyişiklik edib. SİA-nın məlumatına görə, yeni tövsiyələrdə deyilir ki, maskanı yalnız koronavirus simptomu və ya gizli daşıyıcısı olanların yox, hər kəsin taxması tövsiyə edilir. Maska taxmayan COVİD-19 daşıyıcısının maska taxan sağlam insanı yoluxdurma ehtimalı 70 faizdir. Maska taxan COVİD-19 daşıyıcısının maska taxmayan sağlam insanı yoluxdurma ehtimalı 5 faizdir. Hər iki şəxs maska taxarsa, virusun yoluxma ehtimalı 1.5 faizə düşür.**

Qeyd edək ki, dünyanın bir çox ölkələrində maska taxmaq məcburi elan olunub və bu qaydanı pozanlar cərimə və ya həbs olunur. Azərbaycanda da maskadan istifadə etməyə görə cərimələr qüvvədədir. Beləki, müəyyən edilmiş yerlərdə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməməyə görə fiziki şəxslər 50 manat məbləğində, vəzifəli şəxslər 100 manat, hüquqi şəxslər 200 manat məbləğində cərimə edilir.

## Cengiz Öndər "Mançester Yunayted"ə keçir?

**"Roma"da çıxış edən futbol üzrə Türkiyə millisinin üzvü Cengiz Öndər karyerasını İngiltərədə davam etdirə bilər. İngiltərə mətbuatının yazdığına görə, İngiltərə nəhəngi "Mançester Yunayted" türkiyəli futbolçunun xidmətində maraqlıdır.**

Bildirilir ki, "qırmızı şeytanlar" Borussiada çıxış edən Ceydon Sançonun transferindən vaz keçməyi düşünür. Buna səbəb Dortmund təmsilçisinin futbolçu üçün 125 milyon avro tələb etməsidir.

"Qırmızı şeytanlar" isə bu rəqəmin çox olduğunu və alternativ kimi Öndəri heyətinə qatmağı düşünür. Premyer Liqa təmsilçisinin Türkiyə millisinin üzvü üçün 30 milyon avro ödəməyə hazır olduğu vurğulanıb.




## Baldırğan kökünü dəmlə, öd kisəsi daşlarını yox et!

***Sürətlə böyüməsinə və hündür olduğuna görə İsveç bioloqu Karl Linney baldırğanı qədim yunan mifologiyasının qəhrəmanı olan Heraklın şərəfinə "heraclum sphondylium" adlandırıb. Bitkinin quru zoğlarından fleytanın bir növü olan kalyuki və reynstik kimi musiqi alətləri düzəldilməsində istifadə edilir. Yüksək qida dəyərinə görə baldırğanın zəhərsiz növləri bir çox ölkələrdə quru yem hazırlanmasında, kulinariyada isə bitkinin cavan yarpaq və zoğlarından salat və borşların hazırlanmasında istifadə olunur.***



AZƏRTAC tibbi mənbələrə istinadla xəbər verir ki, baldırğanın tərkibində etil efiri yağı və yağ turşuları var. Əsas komponentini isə sirkə turşusunun oktil efiri təşkil edir və bu keyfiyyətinə görə tibdə tətbiq olunur.

Aparılan tədqiqatlar nəticəsində baldırğan kökünün dəmləməsinin öd kisəsi daşlarını parçaladığı müəyyən edilib. Köklərindən alınan qalen preparatlar və alkaloidlər göbələk əleyhinə təsirə malikdir. Meyvələrindən alınan kumarinlər şiş əleyhinə təsir göstərir. Həmçinin bəlğəmli öskürək, isteriya və epilepsiya tutmaları, sinir, dəri və mədə-bağırsaq xəstəliklərində, əsasən də diareyalarda çox faydalıdır.

Bununla yanaşı, bitkinin fototoksik təsiri də var. Baldırğanın yarpaqları efir yağları ilə zəngindir. Bitkinin bəzi növlərinin şirəsinin tərkibində dərinin ultrabənövşəyi şüalara qarşı müdafiə qabiliyyətini azaldan, həssaslığını isə kəskin artıran aktiv furanokumarin maddəsi var. Baldırğan şirəsinə toxunduqda və ya bitkini qırmaq istədikdə dəridə qıcıqlanma, bəzən isə yanıq - fotodermatit yarana bilər.

## Dərini erkən qocaldan səbəblər

**Bir sıra xarici amillər və düzgün qulluq göstərilməsi dərinin vaxtından əvvəl qocalmasına səbəb olur. Həmin prosesi tamamilə dayandırmaq mümkün olmasa da, ləngitmək olar.**

Bakıdakı 15 nömrəli poliklinikanın həkim-dermatoloqu Solmaz Orucova AZƏRTAC-a dediyinə görə, mütəmadi spirt qəbulu, günəşin zərərli şüaları dərini qocaldır və bunun qarşısını almaq üçün bəzi vərdişlərdən uzaq durmaq lazımdır: "Makiyajı silmədən yatmaq dəriyə vurulan ən böyük zərbələrdən biridir. Gün ərzində dəri məsamələrində makiyaj və çirk qalıqları yığılaraq incə xətlər yaradır. Ona görə də hər gecə üzü dəri tipinə uyğun vasitələrlə təmizləmək və sonra nəmləndirici krem tətbiq etmək lazımdır.

Dəridə qırışların erkən yaranmaması üçün qidalanma da mühüm şərtdir. Çox şəkərli və duzlu qidaların qəbulu kilo almaqla yanaşı, dərinin erkən yaşlanmasına da səbəb olur. Günəşin zərərli şüalarının dəridə pozulmalar əmələ gətirməsi və kollagenlərin zərər görməməsi üçün bayıra çıxanda günəş kremindən istifadə etmək məsləhətdir".

Onun dediyinə görə, yastıqda üzü üstə yatmaq dəridə qırışlar əmələ gətirir. Ona görə də kürəyi üstə və yan tərəfi üstə yatmaq daha düzgündür. Əsəb və stress də dərinin vaxtından əvvəl qocalmasına səbəb olan amillərdəndir.

## Bakıda qətl törədən şəxslər tutulub

**Qəsdən adam öldürməkdə şübhəli bilinənlər Bakı şəhər sakini R.Hənifəyev və Abşeron rayon sakini R.İsrafilov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, iyunun 17-də Yasamal rayonu ərazisindən Bakı şəhər sakini Cəlal Hüseynovun qarın nahiyəsindən kəsilmiş-deşilmiş xəsarətlə xəstəxanaya gətirilməsi və orada ölməsi barədə 27-ci Polis Bölməsinə məlumat daxil olub.**

Dərhal rayonun polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib. Faktla bağlı cinayət işi başlanılıb. Keçirilmiş istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində qəsdən adam öldürməkdə şübhəli bilinənlər, əvvəllər məhkum olunmuşlar - Bakı şəhər sakini R.Hənifəyev və Abşeron rayon sakini R.İsrafilov saxlanılıblar.



## Sürücüsü Hülya Avşarı məhkəməyə verdi



Aktrisa-aparıcı Hülya Avşar sürücüsü Nevzat Demirkırana heç bir təzminat ödəmədən işdən qovub. Axşam.az xarici KİV-ə istinadən xəbər verir ki, sənətçiyə 20 ildir xidmət edən Demirkıran "Arxamdan xəncər vurdular. Məhkəmədə görüşərik" deyərək hədə-qorxu gəlib.

Ötən il işdən qovulan sürücü məhkəməyə müraciət edib. Demirkıran "Bu günə qədər heç kimin malına əl uzatmadım. Haqqımı halal etmirəm. Avşarın 6-7 ildir işi yoxdur. Qızı Zəhra sürücülük vəsiqəsi alandan sonra mənə ehtiyacı qalmadı. sentyabrda məhkəmənin ilk iclası olacaq" sözlərini deyib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**